TALEYİMİZDƏ DÖNÜŞ YARADAN GÜN

15 İyun Qurtuluş Günü

İndiki müasir və müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəri sayılır. Onun ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 15 iyun tarixi Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd olunur.

"Mən həyatımın mənasını xalqıma xidmətdə görürəm. Azərbaycan mənim həyatımın mənasıdır", - söyləyən Heydər Əliyev Azərbaycan xalqının taleyində mühüm rol oynayıb. "Mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır", - deyən Ulu Öndər bu etimadı və etibarı doğrultmaq üçün bütün gücünü səfərbər edib.

Ümummilli Lider Heydər Əliyev 1995-ci ildən başlayaraq cəmiyyət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsinə başlayıb. Azərbaycanın yeni Konstitusiyasının qəbul olunması, çoxpartiyalı siyasi sistemin formalaşdırılması, siyasi plüralizmin cəmiyyətin normasına çevrilməsi, söz və mətbuat azadlığının təmin edilməsi bilavasitə onun adı ilə bağlıdır.

SƏHİFƏ 4-də

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

ÜÇ ƏSRİN QƏZETİ

Kaspi

17 İyun ŞƏNBƏ 2023 | 22 (4124) Qiyməti - 40 qəpik www.kaspi.az

BEYNƏLXALQ TƏŞKİLATLAR ERMƏNİSTANA YERİNİ GÖSTƏRMƏLİDİR

KƏNARDAN İDARƏ OLUNAN TƏXRİBAT

Ekspertlərin qənaətincə, Naxçıvanda və Laçın yolu üzərindəki sərhəd keçid məntəqəsində təxribatlar məqsədyönlü şəkildə həyata keçirilib ki, tərəflər arasında formalaşmaqda olan dialoq mühiti yenidən pozulsun.

SƏRHƏDDƏ ERMƏNİ TƏXRİBATLARI ARTIB

"Kaspi" qəzetinə açıqlamasında politoloq Əlimusa İbrahimov bildirdi ki, son günlər ermənilərin sərhəddə təxribatları artıb: "Elə gün olmur ki, ermənilərin sərhəddəki təxribatları barədə məlumatlar yayılmasın. Onlar əllərində olan bütün imkanlardan istifadə edərək vəziyyəti gərginləşdirməyə və Azərbaycanın cavab tədbirləri görməsinə nail olmağa cəhd edirlər".

SEÇİLƏN ZAMAN TƏSADÜFİ DEYİL

Politoloq Samir Hümbətov da bildirdi ki, Naxçıvanın və Laçın yolu üzərindəki sərhəd keçid məntəqəsinin atəşə tutulması birbaşa təxribatdır. Təxribat üçün Ərdoğanın Azərbaycana səfər etdiyi tarixin seçilməsi təsadüfi deyil: "Bu təxribat əsasən üçüncü tərəflərin təhriki ilə baş verib. İstisna deyil ki, hətta Paşinyanın komandasına daxil olanlar tərəfindən də belə bir addım atılar".

SƏHİFƏ 2 və 6-da

"SON HADİSƏLƏR QƏBULEDİLMƏZDİR"

Deputat Tural Gəncəliyev deyib ki, Ermənistan qonşularının ərazi bütövlüyünü pozan çıxışlarına son qoymalıdır. Ermənistanın sülhün əldə edilməsində maraqlı olmadığını deyən deputat bildirib ki, Ermənistanın milli atributlarında da qonşu dövlətlərə qarşı ərazi iddiaları mövcuddur: "Ermənistan rəhbərliyi xalqını sülhə hazırlamalıdır".



BAKI VƏ ANKARA OXLARI EYNİ HƏDƏFƏ VURUR

Ərdoğanın Azərbaycan səfəri Şuşa Bəyannaməsinin növbəti ildönümünə təsadüf etdi. Ərdoğan hər iki ölkənin Şuşa Bəyannaməsinin müddəalarının bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlı olduğunu və bu məsələdə güzəştə getməyəcəklərini vurğuladı.

SƏHİFƏ 3-də

QİYMƏT ARTIMI ŞƏKƏRƏ DƏ ÇATDI

Dünyada şəkərin qiyməti artır. Azərbaycanda da şəkərin qiyməti xammal idxalından asılıdır. Ekspertlər qiymət artımının ölkəmizdə də hiss edildiyi qənaətindədir.

SƏHİFƏ 10-da

İSRAİL MOLLA REJİMİNİ KÜNCƏ SIXIR

İsrail-İran gərginliyi yeni mərhələyə keçib. Tərəflər arasında hərbi qarşıdurma riski artıb. Rəsmi Təl-Əviv bir daha molla rejiminin nüvə silahına sahib olmasına imkan verməyəcəyini bəyan edib.

SƏHİFƏ 7-də

"Tesla"da çalışan mühəndis

Səhifə 8-9-da

Kino çəkmək, toy etmək, yoxsa...?

Səhifə 11-də

Evimizi əcnəbilər alır

Səhifə 13-də

Özbəkistanın azərbaycanlı övladı

Səhifə 14-də



O xal nə xaldır qoşa düzdürmüsən?

Səhifə 15-də



İlham Əliyev İtaliyanın Azərbaycandakı səfirliyində olub

Prezident İlham Əliyev iyunun 16-da İtaliya Respublikasının ölkəmizdəki səfirliyində olub, bu ölkənin Nazirlər Şurasının keçmiş Sədri Silvio Berluskoninin vəfatı ilə əlaqədar başsağlığı verib.

AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev İtaliyanın ölkəmizdəki səfirliyinə gəlib. İtaliyanın Azərbaycandakı səfiri Klaudio Taffuri dövlət başçısını qarşılayıb. Prezident İlham Əliyev matəm kitabına ürək sözlərini yazıb.

XİN-dən Paşinyanın iddialarına cavab

Ermənistan tərəfindən törədilmiş təxribatın məqsədi, Azərbaycan tərəfdən sərhəd buraxılış məntəqəsinin uğurlu fəaliyyətinə kölgə salmaq, məntəqədən təhlükəsiz və sərbəst şəkildə istifadəyə maneçilik törətməkdir.

Bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin Ermənistanın baş naziri Nikol Paşinyanın iyunun 16-da hökumət iclasında çıxışı zamanı səsləndirdiyi iddialarla bağlı şərhində əksini tapıb.

Qeyd olunub ki, hücumdan sonra, bu təxribatın səbəblərinin araşdırılması, sərhəd buraxılış məntəqəsinin və oradan keçidin təhlükəsizliyinin təmin edilməsi məqsədilə Azərbaycan tərəfindən həyata keçirilən müvafiq tədbirlərin "blokada" kimi qiymətləndirilməsi qəbuledilməzdir.

SOCAR Pakistana maye qaz tədarük edəcək

Azərbaycan iyul ayından Pakistana güzəştli şərtlərlə mayeləşdirilmiş təbii qaz (LNG) tədarükünə başlayacaq.

"Report" TASS-a istinadən xəbər verir ki, bu barədə Pakistanın Baş naziri Şahbaz Şərifin ofisi məlumat yayıb.

Məlumatda deyilir ki, Azərbaycandan LNG idxalına başlanılması bu ay Rusiyadan neftin ilk partiyasını aldıqdan sonra Pakistanın enerji ehtiyaclarını ödəməkdə əldə etdiyi ikinci böyük nailiyyət olub.

Qeyd edilib ki, LNG tədarükü Pakistan Dövlət Neft Şirkəti (PSO) ilə Azərbaycan Dövlət Neft Şirkəti (SOCAR) arasında bağlanmış müqavilə əsasında həyata keçiriləcək.

Deputatlar sərhəddəki TƏXRİBATI PİSLƏDİLƏR

"Ermənistan rəhbərliyi xalqını sülhə hazırlamalıdır. Son hadisələr, Azərbaycan hərbçisinə, Rusiya sülhməramlılarına atəş açılması qəbuledilməzdir".

Milli Məclisin son iclasında Laçındakı sərhəd buraxılış məntəqəsində yaşanan son təxribat müzakirə edilib. Dövlət büdcəsinə dəyişikliklər üçüncü oxunuşda təsdiqlənib. Taksi fəaliyyəti ilə bağlı yeni layihə də birinci oxunuşda qəbul olunub.

BEYNƏLXALQ TƏŞKİLATLAR ERMƏNİSTANA YERİNİ GÖSTƏRMƏLİDİR

Milli Məclisdə Ermənistanın Laçın sərhəd-nəzarət buraxılış məntəqəsində törətdiyi təxribat müzakirə olunub.

Deputat Musa Qasımlı çıxışı zamanı deyib ki, beynəlxalq humanitar hüquqdan danışanlar Ermənistan silahlı qüvvələrinin Laçın sərhəd-nəzarət buraxılış məntəqəsində törətdiyi hadisəyə münasibət bildirməlidir. O vurğulayıb ki, beynəlxalq təşkilatlar ipə-sapa yatmayan, uşaq bağçasında özünü narahat uşaq kimi aparan Ermənistana yerini göstərməlidir: "Baş verən hadisələrlə bağlı bütün məsuliyyət Ermənistan və havadarlarının üzərinə düşür. Sərhədimizdən bir quşun belə bizdən xəbərsiz uçmasına icazə verməməliyik. Xalq olaraq hər zaman dövlətimizin yanındayıq".

Deputat Tural Gəncəliyev deyib ki, Ermənistan qonşularının ərazi bütövlüyünü pozan çıxışlarına son qoymalıdır. Ermənistanın sülhün əldə edilməsində maraqlı olmadığını deyən deputat bildirib ki, Ermənistanın milli atributlarında da qonşu dövlətlərə qarşı ərazi iddiaları mövcuddur: "Ermənistan rəhbərliyi xalqını sülhə hazırlamalıdır. Son hadisələr, Azərbaycan hərbçisinə, Rusiya sülhməramlılarına atəş açılması qəbuledilməzdir".

SÜLH MÜQAVİLƏSİ ZƏNGƏZURDA İMZALANSIN

Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc isə sülh müqaviləsinin Zəngəzurda imzalanmasını təklif edib. "İrəvan və Bakı barış istəyirlərsə, gedib müqaviləni Brüssel, Moskva və Vaşinqtonda deyil, Zəngəzurda imzalamalıdırlar", – deyə o bildirib. Onun sözlərinə görə, Paşinyana Brüssel və Parisdən güclü təzyiqlər var: «USAİD, UNİCEF, UNESCO və digər humanitar təşkilatlar, o cümlədən Beynəlxalq Qırmızı Xaç Cəmiyyəti agentura şəbəkəsinə çevrilib və onların Qarabağa gələn missiyası hərbi-kəşfiyyat planlarını həyata keçirirlər. Dünənki Zəngilan, Laçın və digər sərhəd nöqtələrində təxribatlarla Strasburqdakı, Brüsseldəki siyasi şantaj dolu müzakirələr vahid mərkəzdən idarə olunur".



TAKSİ FƏALİYYƏTİ İLƏ BAĞLI YENİ QAYDALAR

Parlamentin son iclasında Azərbaycanda taksi fəaliyyəti, sərnişindaşıma və yükdaşıma ilə bağlı yeni qaydaların müəyyənləşməsi ilə bağlı qanunlara dəyişiklik layihələri də birinci oxunuşda müzakirəyə çıxarılıb. Müzakirələrdən sonra layihələr səsverməyə çıxarılaraq ilk oxunuşda qəbul olunub. Layihələrə əsasən, taksi kimi istifadə olunan bütün avtomobillərə taksometr quraşdırılacaq. İcazə olmadan taksi sifarişi operatoru kimi fəaliyyət göstərilməsinə görə vəzifəli şəxslər 20 min manat, hüquqi şəxslər isə 40 min manat cərimə ediləcək. Taksi sürücüsü barədə məlumatları informasiya sisteminə ötürməyənlər 20 min manat cərimələnəcək. Buraxılış vəsiqəsi olmadan daşıyıcı tərəfindən taksi minik avtomobilləri ilə sərnişin daşınmasının təşkilinə görə vəzifəli şəxslər 200 manat məbləğində, hüquqi şəxslər isə 1000 manat məbləğində cərimə ediləcək.

DÖVLƏT BÜDCƏSİNƏ DƏYİŞİKLİKLƏR TƏSDİQLƏNİB

Milli Məclis "Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsi haqqında" qanuna dəyişiklik layihəsini də III oxunuşda müzakirəyə çıxarıb. Qəbul edilən qanuna əsasən, dövlət büdcəsinin gəlirləri təsdiq olunmuş 30774 milyon manata qarşı 3116,5 milyon manat və ya 10,1 faiz artırılaraq 33890,5 milyon manat təşkil edəcək. Dövlət büdcəsinin təsdiq olunmuş 33353,3 milyon manat məbləğində xərcləri 3271,5 milyon manat və ya 9,8 faiz artırılaraq 36624,8 milyon manata çatdırılacaq.

BAKI VƏ ANKARA OXLARI EYNİ HƏDƏFƏ VURUR

Prezident İlham Əliyevin dəvəti ilə türkiyəli həmkarı Rəcəb Tayyib Ərdoğanın Azərbaycan səfəri Şuşa Bəyannaməsinin növbəti ildönümünə təsadüf etdi. Ərdoğan hər iki ölkənin Şuşa Bəyannaməsinin müddəalarının bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlı olduğunu və bu məsələdə güzəştə getməyəcəklərini vurğuladı.

AQŞİN KƏRİMOV

Növbəti dəfə Türkiyə Prezidenti seçilən Rəcəb Tayyib Ərdoğan ilk səfərini Şimali Kipr Türk Respublikasına və Azərbaycana etdi.

Bu səfər 2021-ci ilin iyunun 15-də Azərbaycan Prezidenti İlham Əliyevlə Türkiyə lideri Rəcəb Tayyib Ərdoğan arasında imzalanan Şuşa Bəyannaməsinin ildönümünə təsadüf etdi. Bu o anlama gəlir ki, Ərdoğanın Bakı səfəri həm simvolik olaraq, həm də praktiki əhəmiyyət sferasında digər regional güclərə xəbərdarlıqları özündə cəmləşdirir.

SİTATLARDAKI XƏBƏRDARLIQLAR

Əliyev Ərdoğanla mətbuata birgə bəyanatda həmin mövzuya bu sitatla vurğu etdi: "İki gündən sonra biz Şuşa Bəyannaməsinin ikinci ildönümünü qeyd edəcəyik. Şuşa Bəyannaməsi tarixi anlaşmadır. Bu anlaşma nəticəsində Türkiyə və Azərbaycan rəsmən müttəfiq oldular. Əslində, faktiki olaraq, biz uzun illər müttəfiqlər kimi fəaliyyət göstərirdik, ancaq Şuşa Bəyannaməsi bunu rəsmi sənədə çevirdi".

Ərdoğan isə Azərbaycanla Türkiyənin Şuşa Bəyannaməsinin müddəalarının bundan sonra da uğurla həyata keçirməyi davam etdirməkdə qərarlı olduqlarını və bu məsələdə güzəştə getməyəcəklərini vurğuladı.

Ərdoğanın artıq keçmişdə qalan Minsk Qrupunun Qarabağ münaqişəsi zamanındakı "fəaliyyət"inə diqqət çəkərək Azərbaycanın hərb gücü ilə torpaqlarını işğaldan azad etməsini vurğulaması adi bir xatırlatma deyildi. Çünki Ərdoğan yuxarıda qeyd olunan sitatı ilə perspektivdə Azərbaycanla Türkiyənin regionda sülh olmasa, ata biləcəyi genişmiqyaslı birgə addımlara işarə verir.

Ərdoğanın Azərbaycanla Türkiyənin bir-birinə qarşılıqlı strateji dəstəyi fonunda qeyd etdiyi "Xüsusilə səlahiyyətlərimin icrasına başlama mərasimində İlham qardaşımın xanımı ilə birlikdə iştirakı dünyaya və Türkiyəyə bir mesajdır. Buna görə mən də eyni qaydada xanımımla birlikdə bu səfərə gəlmişəm" deməsi qlobal oyunlarda yer alan güclərə xəbərdarlıq motivindədir.

TÜRKİYƏ QLOBAL NÜFUZUNU ARTIRIR

Ərdoğan növbəti prezidentliyi dövründə Türkiyənin Yaxın Şərq, Mərkəzi Asiya, Cənubi Qafqaz, Avropa, Afrikadakı profilini yüksəliş dövrünə qaldırmağı hədəfləyir.

Türkiyənin maraqları Ankaranın rəqiblərinin gözünə tikan kimi batır. Türkiyə iqtisadiyyatını, diplomatik təcrübəsini, hərbi gücünü strateji müttəfiqi Azərbaycanla uyğunlaşdırıb, yaranacaq mexanizmləri Rusiya-NATO gərginliyindən doğan regional narahatlıqlar önündə sipər etmək niyyətindədir.

Türkiyənin yaratdığı mühit Azərbaycan üçün strateji əhəmiyyətə malikdir, ancaq iki ölkə Ərdoğanın Əliyevlə mətbuata birgə bəyanatında qeyd etdiyi kimi, bir sıra addımlar da atmalıdır.

ZƏNGƏZUR DƏHLİZİ VƏ QƏLƏBƏ

Bu, enerji sahəsindəki əməkdaşlıqda açıq qalan məsələlərdən tutmuş, hərbi sahədəki bir sıra mühüm aspektləri özündə ehtiva edən çağırışdır. Beləliklə, Azərbaycanla Türkiyə strateji müttəfiqlik qaydalarına əsaslanan regional nizam formalaşdırmaq yolunda addımlayırlar.

Bakı-Ankara ikilisi kənardan olan xəbərdarlıqlara, qısqanc reaksiyalara baxmayaraq "istənilən addımları atacağıq" kriteriyalarına cavab verir və bu birgə iradə onlarla rəqabət aparan tərəflərə qarşı effektiv mübarizə formalaşdırır.

Mübarizənin şiddət və səmərəliliyini artırmaqdan ötrü Azərbaycanla Türkiyə bir-birlərinin dövlət maraqlarını regionda və qlobal tədarük zəncirlərində həlledici amillərdən biri hesab edilən Zəngəzur dəhlizi layihəsinə fokuslayırlar.

Əliyevlə Ərdoğanın danışıqlarından görünür ki, Zəngəzur dəhlizi məsələsi çox vacibdir.

Zəngəzur dəhlizi üzrə Ermənistanın tutduğu mövqe regional gərginliyin həllinə maneə yaradır və bunu böyük güclərin əlində alətə çevirir. İlham Əliyev "Zəngəzur dəhlizinin açılması qaçılmazdır" deməsi və Türkiyə Prezidentinin onu dəstəkləyən bəyanatı gələcək hadisələrə hazırlıq kimi qiymətləndirilə bilər.

MÜDAFİƏ SƏNAYESİNDƏ BİRGƏ TƏSİSATLAR YARADILACAQ

Müdafiə qüdrətinin artırılması qarşıda dayanan vəzifədir və təhlükəsizlik narahatlıqlarına qarşı immunitet formalaşdıran vacib amildir. Buna görə də Azərbaycanla Türkiyə müdafiə sənayesində birgə təsisatlar yaratmaq planlarını irəli aparacaqlar. Bu xətt nəinki Cənubi Qafqazdakı müştərək maraqlara, eləcə də Türkiyənin genişlənmə arealına müsbət təsir göstərir.

Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsindəki cızılacaq xətlər isə Azərbaycanla Türkiyənin qlobal sistemdəki yerini bərkidəcək. Məlum xətt Qərb, Rusiya, Çin arasındakı çəkişmələrin poliqonunda qərar tutduğundan gələcəkdə TDT üzrə vahid hərbi doktrina da hazırlana bilər. Vahid yanaşmalar institutlaşma tələb edir, Azərbaycanla Türkiyə bu institutlaşmanı həyata keçirir. Türkiyə-Azərbaycan birgə Universitetinin yaradılması haqqında qərar institutlaşma prosesinə əlavə stimul olacaq və vahid kadr hazırlığı proqramının tərtibinə gətirib çıxaracaq.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR
Tel: (+994 55) 457 02 03
E-mail: kaspiqazeti@kaspi.az

Taleyimizdə dönüş YARADAN GÜN

İndiki müasir və müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəri sayılır. Onun ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 15 iyun tarixi Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd olunur.

RUFİK İSMAYILOV
rufikismayilov@kaspi.az

"Mən həyatımın mənasını xalqıma xidmətdə görürəm. Azərbaycan mənim həyatımın mənasıdır", - söyləyən Ümummilli Lider Heydər Əliyev həyat və fəaliyyəti ilə Azərbaycan xalqının taleyində mühüm rol oynayıb, dünyaşöhrətli siyasətçi, böyük şəxsiyyət kimi adını tarixə yazdıra bilib. "Mənim ən böyük qüvvəm, gücüm, ən böyük silahım xalqın mənə göstərdiyi etimaddır, etibardır və xalqın dayağıdır", - deyən Ulu Öndər Heydər Əliyev bu etimadı və etibarı doğrultmaq üçün bütün gücünü səfərbər edib. Hətta öz həyatını, gələcəyini dəfələrlə təhlükə altına ataraq, xalqının və dövlətinin mənafeyini qoruyub, əsl lider kimi xilaskarlıq missiyasını yerinə yetirib.

İQTİSADİ, SOSİAL VƏ MƏDƏNİ HƏYATIN ƏN MÜHÜM SAHƏLƏRİ

Heydər Əliyev rəhbər vəzifədə təmsil olunduğu 1969-82-ci illərdə iqtisadi göstəricilərinə görə ittifaq ölkələrindən geri qalan sovet Azərbaycanının dirçəlişinə nail olub. Doğma xalqının potensialına yaxşı bələd olan Ulu Öndərin qəbul etdiyi qərarlar sayəsində kənd təsərrüfatının müxtəlif sahələrində ciddi uğurlara imza atılıb, yeni istehsal müəssisələri, zavod və fabriklər yaradılıb, ümumən iqtisadi intibah yaşanıb. Ümummilli Lider 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa verib. Ulu Öndərin təsir imkanlarının məhdudlaşdırılmasından istifadə edən ermənilərin bu andan etibarən Azərbaycana qarşı əsassız ərazi iddiaları baş qaldırıb, Qarabağda separatizm körüklənib, 1988-ci ildə Qərbi Azərbaycandan yüzminlərlə soydaşımız öz dədə-baba yurdlarından deportasiya olunub. Sovet hakimiyyətinin ikiüzlü siyasətinə etiraz edən Azərbaycan xalqının üzərinə 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə tanklar yeridilib. O vaxt səhhətindəki nasazlığa, özünün və ailəsinin həyatına qarşı baş verə biləcək təhlükəyə əhəmiyyət verməyən Heydər Əliyev yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlib, bəyanatla çıxış edərək Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb edib.

DÖVLƏT MÜSTƏQİLLİYİNİ TƏHDİD EDƏN PROSESLƏRİN QARŞISI ALINIB

Ulu Öndər Heydər Əliyevin sonrakı taleyi Naxçıvanla bağlı olub. Burada o, 1993-cü ilə kimi çalışıb. Bu illər Azərbaycanın müstəqilliyinin ilk dövrlərinə təsadüf edib. 1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yaranmışdı. Məhz belə bir vaxtda Azərbaycan xalqı Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürüb. Xalqın təkidli tələbi qarşısında ölkənin o dövrdəki rəhbərliyi Ulu Öndəri Bakıya dəvət etməyə məcbur olub. 1993-cü il iyunun 9-da xalqın çağırışına səs verərək Bakıya qayıdan, iyunun 15-də Ali Sovetin sədri seçilən, iyunun 24-dən Prezident səlahiyyətlərini həyata keçirməyə başlayan Ümummilli Lider ölkəmizi bəlalardan, müsibətlərdən xilas edib. Bu tarix sözün əsl mənasında ölkəmizin taleyində dönüş anı olub. Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycanın dövlət müstəqilliyini təhdid edən proseslərin qarşısı alınıb və əsas diqqət dövlət quruculuğu məsələlərinə yönəldilib.

"Mən inanıram, əminəm ki, biz müstəqilliyin geniş yoluna çıxacağıq və Azərbaycan müstəqil dövlət kimi yaşayacaq, Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz olacaq və bizim müstəqilliyimizi, milli azadlığımızı heç kəs heç bir yolla sarsıda bilməyəcəkdir", - söyləyən, azərbaycanlı olmağı ilə hər zaman fəxr edən Ümummilli Lider 1995-ci ildən başlayaraq cəmiyyət həyatının bütün sahələrində köklü islahatların həyata keçirilməsinə başlayıb.

HƏYATA KEÇİRİLƏN TARİXİ İSLAHATLARIN ƏSAS TƏŞƏBBÜSKARI

Azərbaycanın yeni Konstitusiyasının qəbul olunması, çoxpartiyalı siyasi sistemin formalaşdırılması, siyasi plüralizmin cəmiyyətin normasına çevrilməsi, söz və mətbuat azadlığının təmin edilməsi bilavasitə onun adı ilə bağlıdır. "Vətənə, millətimə, xalqıma məhəbbət, müstəqil Azərbaycan dövlətinə, Azərbaycan Respublikasına hədsiz məhəbbət mənim həyatımın mənasıdır, məzmunudur", - deyən Ulu Öndər müstəqil Azərbaycana rəhbərlik etdiyi illərdə bazar iqtisadiyyatı quruculuğu məqsədilə də mühüm addımlar atıb, dünyanın aparıcı şirkətlərini Xəzər dənizinin Azərbaycan sektorundakı karbohidrogen ehtiyatlarının istismarına cəlb edə bilib, neftin dünya bazarlarına çıxarılması üçün marşrutlar müəyyənləşdirilib və qısa müddətdə Azərbaycanın inkişafını təmin edəcək resurslar əldə olunub. Bütün bunlara görə də indiki müasir və müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəri sayılır. Onun ikinci dəfə siyasi hakimiyyətə gəldiyi 15 iyun tarixi Azərbaycanda Milli Qurtuluş Günü kimi qeyd olunur.

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili də bildirib ki, Ulu Öndər 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdandan sonra ölkədə baş verən proseslərin və həyata keçirilən islahatların bütün istiqamətlərinin əsas təşkilatçısı olub. Onun sözlərinə görə, Azərbaycan iqtisadiyyatını bazar münasibətləri şərtləri əsasında formalaşdıran Ümummilli Lider özəl biznesə, azad sahibkarlıq fəaliyyətinə, özəlləşdirilmə prosesinə xüsusi diqqət ayırıb: "Ulu Öndərin məqsədi ölkə iqtisadiyyatını dünyanın inkişaf etmiş ölkələrinin iqtisadi sistemi əsasında qurmaq və dünya iqtisadiyyatına inteqrasiya etmək idi. Onun hakimiyyəti dövründə əldə olunan makroiqtisadi sabitlik, sənayedə və digər sahələrdə iqtisadi göstəricilərin artımı, həyata keçirilən genişmiqyaslı iqtisadi islahatların nəticəsində mümkün oldu. Ümummilli Liderin hazırladığı neft strategiyası hesabına maliyyə imkanlarımız artdı, əhalinin həyat tərzi yüksəldi. "Əsrin müqaviləsi" Ulu Öndərin neft sənayesi strategiyasında qazandığı uğurların başlanğıcı idi. Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən bu müqavilə həm respublikanın daxilində sabitliyin bərqərar olunmasında, həm də xarici siyasətdə uğurların qazanılmasında müstəsna rol oynayıb".

Tahir Mirkişili

TÜRKİYƏ-AZƏRBAYCAN UNİVERSİTETİ NƏ VAXT YARADILACAQ?

İki ölkənin müvafiq qurumları arasında bununla bağlı görüşlər keçirilib. Görüşlərdə tərəflərin hüquq və öhdəliklərinə dair müzakirələr aparılıb. Birgə universitet ortaq mədəni və tarixi dəyərlərimizin gün işığına çıxmasına, dəqiq elmlər və texnologiya sahəsində inkişafa təkan ola bilər.

RUFİK İSMAYILOV
rufikismayilov@kaspi.az

Ötən tədris ilinin statistikasına görə, Türkiyədə təhsil alan azərbaycanlı tələbələrin sayı 27 min nəfəri keçib. Baxmayaraq ki, Azərbaycanda 51 universitet fəaliyyət göstərir, Türkiyədəki 204 ali təhsil müəssisəsinə üz tutanların sayı hər il artır. Qardaş ölkədə təhsil alanlar təhsil haqqı, xaricə gediş-gəliş xərcləri, yataqxana problemi, oturum izni və sair bu kimi çətinliklərlə üzləşirlər.

"Kaspi" qəzetinin əvvəlki saylarında bu məsələni ictimailəşdirərək, həlli yollarına dair ekspertlərin fikir və təkliflərini diqqətə çatdırmışıq. Bu çətinlikləri aradan qaldırmaq, azərbaycanlı tələbələrin təhsil şərtlərini asanlaşdırmaq üçün mütəxəssislərin irəli sürdüyü təkliflərdən biri də Türkiyə-Azərbaycan Universitetinin yaradılmasıdır. Qeyd etmək yerinə düşər ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan iyunun 13-də Bakıya səfəri çərçivəsində Azərbaycanın dövlət başçısı ilə birlikdə mətbuata bəyanatla çıxış edərkən bu məsələyə diqqət çəkiblər. Prezident İlham Əliyev bildirib ki, Türkiyə-Azərbaycan Universitetinin yaradılması istiqamətində danışıqlar indi son mərhələdədir: "Biz çox ümid edirik ki, yaxın aylarda bu məsələ də öz həllini tapacaq və bizim qardaşlıq münasibətlərimizə daha bir töhfə veriləcəkdir".

TƏHSİL SAHƏSİNDƏ ƏMƏKDAŞLIĞA YENİ TÖHFƏ

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da qeyd edib ki, hazırda iki ölkə arasında atılacaq addımlardan biri Türkiyə-Azərbaycan Universiteti məsələsidir. Onun sözlərinə görə, Ali Təhsil İdarəsinin sədri öz həmkarı ilə bu məsələni nəzərdən keçiriblər: "İnşallah, Türkiyə ilə Azərbaycan arasında belə bir universitetin qurulmasına nail olacağıq".

Göründüyü kimi, hər iki dövlət başçısı Türkiyə-Azərbaycan Universitetinin yaradılması istiqamətində siyasi iradə nümayiş etdirib, müvafiq tapşırıqlar da veriblər. Maraqlıdır, belə bir ali təhsil müəssisəsinin yaradılması ölkələrimiz arasında təhsil sahəsində əməkdaşlığa, ümumiyyətlə Türkiyə-Azərbaycan əlaqələrinə necə təsir göstərəcək?

Musa Qasımlı

UNİVERSİTETİN TƏSİS OLUNMASI İLƏ BAĞLI GÖRÜLƏN İŞLƏR

Elm və Təhsil Nazirliyindən bildirilib ki, Türkiyə-Azərbaycan Universitetinin təsis olunması ilə bağlı müvafiq işlər görülür. Qeyd edilib ki, 2021-ci ilin dekabr ayında Ali Təhsil Şurasının sədri Erol Özvarın rəhbərliyi ilə nümayəndə heyətinin ölkəmizə baş tutmuş səfərindən sonra 15-17 mart 2022-ci il tarixlərində Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayevin rəhbərlik etdiyi nümayəndə heyəti Ali Təhsil Şurasının sədri Erol Özvarın dəvəti ilə Türkiyədə səfərdə olub. Səfər zamanı Türkiyə-Azərbaycan Universitetinin təsis olunması istiqamətində tərəflərin hüquq və öhdəliklərinə dair müzakirələr həyata keçirilib.

ATTESTATLA QƏBUL OLUB ALİ TƏHSİL ALMAĞIN PROBLEMLƏRİ

Milli Məclisin Elm və təhsil komitəsinin sədr müavini, AMEA-nın müxbir üzvü, professor Musa Qasımlı mövzu ilə bağlı qəzetimizə açıqlamasında deyib ki, Azərbaycan demokratik bir ölkədir və vətəndaşlarımızın istənilən ölkədə ali təhsil ala bilmək seçimi var. Millət vəkilinin sözlərinə görə, vətəndaşların bu seçiminin, xaricdə ali təhsil almaq hüququnun qarşısını inzibati yollarla almaq mümkün deyil və bu, doğru da olmazdı: "Son illər Azərbaycanda universitetlərə qəbul ola bilməyən bir sıra şəxslər attestatla qardaş Türkiyə universitetlərində ali təhsil almağa gedirlər. Təbii ki, onlar öz seçimlərində azaddırlar. Ancaq yalnız attestatla qəbul olub ali təhsil almağın bir çox problemləri var. Həmin gənclər yaxşı təhsil ala bilirlərmi? Ümumiyyətlə, təhsillərini başa çatdırırlarmı? Orada yaşayış yeri tapmaq, qidalanma xərcləri və digər məsələlər də qayğılar sırasındadır".

VALİDEYNLƏR UNİVERSİTETLƏR ÜÇÜN "SPONSOR"A ÇEVRİLİRLƏR

Professor vurğulayıb ki, məsələnin digər tərəfi Azərbaycanda ailələrin az qala bəzi universitetlər üçün "sponsor"a çevrilməsidir: "Övladlarının taleyi ilə valideynlər bir sıra hallarda yaxından maraqlana bilmirlər. Bu deyilənlər sadəcə qardaş Türkiyə ilə əlaqədar deyil. Azərbaycanlı gənclərin Rusiya, Ukrayna, Gürcüstan universitetlərində də qeyd edilən yolla ali təhsil almalarına dair çoxlu nümunələr, məlumatlar var. Həmin gənclər təhsilini başa vurub Vətənə qayıtdıqdan sonra onların ali təhsil haqqında diplomları müvafiq dövlət qurumu tərəfindən tanınmır, gənclərin əziyyəti hədər gedir".

"TÜRKİYƏ-AZƏRBAYCAN UNİVERSİTETİNİN YARADILMASI MÜSBƏT EFFEKT VERƏR"

Millət vəkilinin fikrincə, bu cür neqativ halların aradan qaldırılması üçün Türkiyə-Azərbaycan Universitetinin yaradılması yaxşı olardı: "Ölkəmizdə Rusiyanın M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin, İ.M.Seçenov adına Birinci Moskva Dövlət Tibb Universitetinin Bakı filialları, həmçinin Azərbaycan-Fransız, İtaliya-Azərbaycan universitetləri modelləri var. Bu nümunələrdən çıxış edərək Türkiyə-Azərbaycan Universitetinin yaradılması da müsbət effekt verər. Bu cür universitetlər Orta Asiya ölkələrində var. Qırğızıstanda Manas, Qazaxıstanda Əhməd Yasəvi universitetləri deyilənlərə misaldır. Bizdə də Türkiyə ilə birgə universitetin yaradılması müsbət hal olardı".



Kənardan idarə olunan TƏXRİBAT

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri zamanı və ondan qısa müddət sonra ermənilər Naxçıvan istiqamətində və Laçın yolu üzərindəki sərhəd keçid məntəqəsində təxribatlar törətdilər. Ekspertlərin qənaətincə, bu təxribatlar bilərəkdən, məqsədyönlü şəkildə həyata keçirilib ki, tərəflər arasında formalaşmaqda olan dialoq mühiti yenidən pozulsun.

BƏXTİYAR MƏMMƏDLİ
bextiyarmemmedli@kaspi.az

Ermənistan növbəti dəfə Naxçıvan istiqamətində iri çaplı silahlardan istifadə edərək sərhəddə təxribatlar törədib. Müdafiə Nazirliyinin yaydığı məlumatda qeyd edilir ki, Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunun Heydərabad yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini minaatanlar da daxil olmaqla iriçaplı silahlardan atəşə tutub. Ermənistan tərəfinin təxribatının qarşısının alınması məqsədilə ordumuzun bölmələri tərəfindən müvafiq cavab tədbirləri görülüb. Bunun ardınca isə Laçın yolu üzərindəki sərhəd keçid məntəqəsi atəşə tutuldu, bir sərhədçimiz yaralandı.

Xüsusi olaraq qeyd etmək lazımdır ki, Ermənistanın təxribatı Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanda səfərdə olduğu müddətdə baş verib.

"BÖYÜK ERMƏNİSTAN" XÜLYASI PUÇ OLUR

Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında politoloq Əlimusa İbrahimov bildirdi ki, son günlər ermənilərin sərhəddə təxribatları artıb: "Elə gün olmur ki, ermənilərin sərhəddəki təxribatları barədə məlumatlar yayılmasın. Onlar əllərində olan bütün imkanlardan istifadə edərək vəziyyəti gərginləşdirməyə və Azərbaycanın cavab tədbirləri görməsinə nail olmağa cəhd edirlər. Azərbaycanın təxribatlara cavabından istifadə edərək bizə qarşı qarayaxma kampaniyası aparmaq istəyirlər.

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycanda səfərdə olduğu müddətdə Naxçıvanın atəşə tutulması da ermənilərin bu qəbildən olan təxribatıdır. Bununla onlar bir daha Türkiyə-Azərbaycan yaxınlaşmasını həzm edə bilmədiklərini büruzə verirlər. Türkiyə-Azərbaycan tandemi onların "böyük Ermənistan" xülyasını puç edir".

Əlimusa İbrahimov

SƏBRİMİZ HEÇ DƏ HÜDUDSUZ DEYİL

Ə.İbrahimov vurğuladı ki, ermənilər Azərbaycanın güclü regional dövlətə çevrilməsini, Türkiyənin qlobal güc olmasını istəmirlər. Təxribatların əsasında dayanan strateji məqsədləri də budur: "Amma Azərbaycan və Türkiyə hər zaman olduğundan daha çox səbir göstərir, təxribatlara adekvat cavab vermir. Bu, bizim səbrimizin heç də hüdudsuz olması anlamına gəlməməlidir. Azərbaycan bütün təxribatların cavabını vermək iqtidarındadır. Biz Prezidentin də dediyi kimi "nəyi, necə, nə zaman etmək lazım olduğunu çox gözəl bilirik".

"PAŞİNYAN HÖKUMƏTİNİN ORDU ÜZƏRİNDƏ NÜFUZU YOXDUR"

Politoloq Samir Hümbətov da bildirdi ki, Naxçıvanın və Laçın yolu üzərindəki sərhəd keçid məntəqəsinin atəşə tutulması birbaşa təxribatdır: "Düşünmürəm ki, bunu birbaşa Ermənistan hakimiyyəti, konkret olaraq Paşinyan komandası bilərəkdən edib. Paşinyanın Ərdoğanın andiçmə mərasimində iştirakından sonra belə halın baş verməsi artıq Ermənistan ordusu daxilində vəziyyətin acınacaqlı və pərakəndə olmasından xəbər verir. Yəni bu, hökumətin silahlı qüvvələr üzərində nüfuzu olmadığının göstəricisidir. Təxribat bilərəkdən, məqsədyönlü şəkildə həyata keçirilib ki, tərəflər arasında formalaşmaqda olan dialoq mühiti yenidən pozulsun. Hər kəs düşünürdü ki, Nikol Paşinyanın andiçmədə iştirakı özlüyündə Ermənistan-Türkiyə münasibətlərinin qurulması üçün bir başlanğıcdır".

S.Hümbətov hesab edir ki, təxribat üçün Ərdoğanın Azərbaycana səfər etdiyi tarixin seçilməsi təsadüfi deyil: "Bu təxribat əsasən üçüncü tərəflərin təhriki ilə baş verib. İstisna deyil ki, hətta Paşinyanın komandasına daxil olanlar tərəfindən də belə bir addım atılar".

Samir Hümbətov

"BU, BİRBAŞA TÜRKİYƏYƏ MESAJDIR"

Politoloq Məhəmməd Əsədullazadə bildirdi ki, Ermənistanın Naxçıvan istiqamətində minaatanlardan istifadə etməklə atəşkəsi pozması Ərdoğanın Azərbaycana səfəri fonunda həyata keçirildi: "Ərdoğanın səfəri çərçivəsində bir sıra mesajlar verildi. Xüsusilə, Türkiyə ilə Azərbaycan arasında hərbi, siyasi, iqtisadi əməkdaşlığın yeni mərhələsinin formalaşması, Türkiyənin artıq Cənubi Qafqazda güc mərkəzinə çevrilməsi Ermənistanı, Rusiyanı, Fransanı narahat etməyə bilməzdi. Naxçıvan təxribatının arxasında Rusiyanın, həmçinin Fransanın dayandığını istisna etmirəm. Naxçıvan Türkiyə üçün həssas məsələdir və ermənilərin məhz buranı atəşə tutması təsadüfi deyil. Bu, birbaşa Türkiyəyə mesajdır. Çünki regionda Türkiyənin siyasəti sabotaj edilməyə başlanıb. Ancaq bu addımların heç bir siyasi perspektivi yoxdur. Azərbaycan və Türkiyə əsaslı cavabı verəcək".

M.Əsədullazadə qeyd etdi ki, əgər Paşinyan Türkiyədə inaqurasiyaya qatılırsa, oradan yüksək əhval-ruhiyyədə qayıdırsa, bunu hətta erməni rəsmilər vurğulayırlarsa, deməli, təxribatda üçüncü qüvvələrin əli var: "Paşinyan da müəyyən səhvlərə yol verir. Normallaşma prosesi ilə bağlı müəyyən manevrlər edir, Rusiyanın vədlərinə aldanır".

Məhəmməd Əsədullazadə

İSRAİL molla rejimini küncə sıxır

İsrail-İran gərginliyi yeni mərhələyə keçib. Tərəflər arasında hərbi qarşıdurma riski artıb. Rəsmi Təl-Əviv bir daha molla rejiminin nüvə silahına sahib olmasına imkan verməyəcəyini bəyan edib.

AZƏR NURİYEV
azernuriyev@kaspi.az

Uranın zənginləşdirilməsi proqramını kritik həddə çatdıran İran rejimi beynəlxalq aləmin diqqətini yenidən özünə cəlb edib. Ətrafında mühasirə halqası daraldıqca, rejim də beynəlxalq aləmi nüvə şantajına məruz qoyur. Bu isə region ölkələri, xüsusən də İsrail tərəfindən ciddi təhlükə kimi nəzərdən keçirilir. Son günlər iki ölkə arasında hərbi əməliyyatların baş verməsi ehtimalı güclənib. İsraili təmsil edən yüksək rütbəli hərbçilərdən biri İranın uranın 90 faiz zənginləşdirilməsinə başlayacağı təqdirdə, onun nüvə obyektlərinə hücum edəcəklərini dilə gətirib. İsrailin hakimiyyət mənsublarının, xüsusilə də baş nazir və müdafiə nazirinin ritorikasına nəzər salsaq, rəsmi Təl-Əviv malik olduğu bütün vasitələrdən istifadə edərək Tehranın nüvə silahına yiyələnməsinə imkan verməyəcəyini bəyan edir. İranın qonşu dövlət olduğunu düşünsək, o zaman problemin Azərbaycan üçün necə ciddi bir məsələ olduğu üzə çıxır. Müharibənin minlərlə insanın ölkəmizə axın etməsinə, sərhəd bölgəsində vəziyyətin gərginləşməsinə səbəb olacağı şəksizdir.

İSRAİL-İRAN MÜNAQİŞƏSİNİN KÖKÜ

İran və İsrail arasında gərginlik yeni deyil. Bu dövlətlər arasındakı münasibətləri iki mərhələyə bölmək mümkündür. Birinci mərhələ İsrail dövlətinin yaradılmasından İran İslam İnqilabına qədərki dövrü əhatə edir. İkinci mərhələ isə İran İslam İnqilabından bu günə kimi olan dövrdür. Xatırladaq ki, İsrail dövlətini ilk tanıyan ölkələrdən biri İran olub - 1950-ci il martın 6-da İsraili müsəlman ölkələri arasında Türkiyədən sonra məhz İran tanıyıb. 1948-ci ildən 1979-cu ilə qədər İran və İsrail həm iqtisadi, həm də hərbi sahədə əməkdaşlıq edirdilər. İsrail üçün İran "periferiya dövləti", yəni dostluq etdiyi qeyri-ərəb ölkəsi idi. 1967-ci il altı günlük müharibədən sonra Misir, Suriya, İordaniya, İraq və Əlcəzairin təmsil etdiyi ərəb koalisiyası İsrailə qarşı neft embarqosu tətbiq etdi. İran isə bu embarqoya qoşulmadı və İsrailə neft verən ölkə oldu. Tehran həmçinin İsrail məxfi xidmətləri üçün təlimlər keçirdi, onun mal və xidmətlərinin əsas idxalçısına çevrildi. 1979-cu ilə qədər İsrail birgə layihələrə, o cümlədən İran neftinin Avropa ölkələrinə axdığı Trans-İsrail neft kəmərinin istismarına görə İrana bir milyard dollar borclu idi. Lakin 1979-cu ildə sürgündən qayıtdıqdan sonra Xomeyni İsraillə əlaqələri kəsdi. Münasibətlərin rəsmi olaraq kəsilməsinə baxmayaraq, iki dövlət arasında əlaqələr Xomeyni İranı ilə Səddam Hüseyn İraqı arasındakı münaqişə səbəbindən 1980-ci illər ərzində saxlanılıb. 1980-ci ildən 1988-ci ilə qədər İran-İraq müharibəsi davam edərkən, İsrail İrana silahlar (əsasən neft müqabilində), hərbi təlimatçılar göndərib, hava dəstəyi göstərib. Yalnız 2000-ci illərdən sonra iki ölkə arasında gərginlik indiki pik həddə çatıb.

İSRAİL VƏ YA ABŞ SEHRLİ ÇUBUQ YELLƏYƏCƏK...

İsrail ordusunun istefada olan polkovniki İtamar Yaarın sözlərinə görə, İran rejimi nüvə sınağı partlayışı həyata keçirməyə çox yaxındır, lakin onun əsl nüvə dövlətinə çevrilməsinə hələ çox vaxt lazımdır. İran hələ ki, təyyarələr üçün nüvə bombası və ya raketlər üçün nüvə başlığı yarada bilmir. "Bundan əlavə, Tehranın əsas məqsədi nüvə silahına sahib olmaq deyil, hamını belə silahlara sahib olduğuna inandırmaqdır. Bu səbəbdən hər zaman mətbuatda İranın bu silahları yaratmağa hazırlaşdığı barədə məlumatlar yayılır. İran bu siyasəti dünya dövlətinə çevrilmək məqsədinə çatmaq üçün həyata keçirir", - deyə ekspert bildirib. Onun fikrincə, İran rejimi həqiqətən nüvə obyektlərini elə qurur ki, zəifliyi minimuma endirsin. Lakin bu obyektləri xarici təsirlərdən tam qorunmuş hesab etmək olmaz. "Nüvə obyektlərinə zərbələrdən danışarkən, çoxları düşünür ki, İsrail və ya ABŞ sehrli çubuq yelləyəcək və bütün nüvə proqramı yox olacaq. Amma bu, mümkün deyil, üstəlik, buna ehtiyac da yoxdur. Xarici nəşrlərə görə, İsrail məhz bunu edir, alimləri öldürür və ya təxribat törədir. İnsanlar İkinci Dünya Müharibəsi üslubunda bir əməliyyat təsəvvür edirlər ki, burada yüzlərlə təyyarə aerodromlardan və ya təyyarədaşıyıcılardan qalxaraq düşmən ölkəni bombalamağa gedir. Lakin bu əməliyyat tamamilə fərqli ola bilər", - İtamar Yaar deyir.

İRAN ƏLÇATMAZ OLAN YENİ HƏRBİ OBYEKTLƏR TİKİB?

Bir müddət əvvəl İranın nüvə silahı yaratmağa yaxın olduğu, eləcə də dağların dərinliklərində bunkerləri məhv edən bombalar üçün praktiki olaraq əlçatmaz olan yeni obyektlər tikdiyi barədə məlumatlar yayılıb. Bu baxımdan bir çox şərhçilər İsrailin İranın nüvə proqramına ciddi ziyan vurmaq imkanını itirməsi barədə danışmağa başlayıblar.

Ekspert qeyd edir ki, İsrailin kiberməkanda hərəkətləri, xüsusi təyinatlılar, müasir raketlərin tətbiqi, İran daxilində agentlərdən təxribat üçün istifadə və s. daxil olmaqla geniş imkanları var. Onun sözlərinə görə, F-35 təyyarələri və ümumilikdə hava zərbələri bu məcburi tədbirlər kompleksinin yalnız bir elementini təşkil edir. Ona görə də İrana ciddi ziyan vurmaq imkanları və vasitələri hələ də var. İsrailin özü belə bir əməliyyatı həyata keçirəcək gücdədir. İ.Yaarın qənaətincə, İranı dayandırmaq üçün təkcə onun nüvə obyektlərinə zərbə endirmək lazım deyil. Məsələn, İran neft ixrac etmək imkanından məhrum olarsa, o zaman proqramı dayandırmaq məcburiyyətində qala bilər.

İTAMAR Yaar

“TESLA”DA 60 DÜYMƏ İLƏ GÖRÜLƏN İŞİ 1 DÜYMƏ İLƏ ETDİ

“TESLA”DA ÇALIŞAN AZƏRBAYCANLI MÜHƏNDİS

MÜSAHİBƏ
SÖHBƏTLƏŞDİ:
AYGÜN ASİMQIZI
aygunasimqizi@kaspi.az

Elvin Müseyibov: “Almaniyaya “Tesla” üçün gəldim. Yoxsa Lüksemburqu daha çox bəyənirəm. “Tesla” hər bir mühəndisin çalışmağı xəyal edəcəyi şirkətdir. Ona görə belə dəyişikliyə getdim”

Azərbaycanda iş həyatına yeni başladığı dönəmdə özü ilə qlobal şirkətlərdə çalışanların gəlirini və qazandığı təcrübəni müqayisə edir. Qənaəti “İnsanın bir ömrü var, komfort zonamda oturaraq mən o şirkətlərdə çalışanların qazandıqlarını əldə edə bilmərəm” olur. Beləliklə, xaricdə təhsil və ardınca da işləmək üçün Lüksemburqa üz tutur. Təhsilini başa vurandan qısa müddət sonra qlobal şirkətdə işləməyə başlayır.

Söhbət ABŞ-nin “Tesla” şirkətinin Almaniya şöbəsində keyfiyyət mühəndisi olaraq çalışan azərbaycanlı gənc Elvin Müseyibovdan gedir.

Qeyd edək ki, E.Müseyibov 1994-cü ildə Tovuzda anadan olub. Kiçik yaşlarından Bakıda, Biləcəri qəsəbəsində yaşayıb. Orta təhsilini 299 nömrəli məktəb-liseydə alıb. Qafqaz Universitetinin (İndiki Bakı Mühəndislik Universiteti) mexanika mühəndisliyi (ingiliscə) ixtisasında bakalavr təhsili alıb. 2018-2020-ci illərdə Lüksemburq Universitetində Davamlı məhsulların yaradılması proqramı üzrə magistr dərəcəsini tamamlayıb.

● Elvin bəy, bakalavr təhsilinizi ingilis dilində almısınız. Uşaq vaxtından sizi ingilis dilinə yönəltmişdilər?

● Orta təhsilimi Biləcəri qəsəbəsində yerləşən orta məktəbdə almışam. Normal məktəb səviyyəsində ingilis dili öyrənmişəm. 10-cu sinifdən sonra xaricdə təhsillə maraqlanmağa başladım. Gördüm ki, xaricə çıxmaq istəyirəmsə, mütləq ingilis dili biliyim yaxşı olmalıdır. Bundan sonra ingilis dilimi inkişaf etdirməyə çalışdım. Dili öyrəndikcə, xarici mənbələrə, ingilis dilində olan araşdırmalara daha çox üstünlük verməyə başladım. Sonra bakalavr təhsilimi də ingilis dilində almaq qərarı verdim.

“İTALİYADA TƏQAÜDLÜ TƏHSİL QAZANMIŞDIM”

● Bakalavr təhsili dönəmində iki yerdə təcrübə keçmisiniz. İkisi də təcrübə üçün maraqlı yerlərdir.

● Universitetdəki təhsil dönəmində təcrübə proqramları keçmək lazım idi. Ya universitetin göndərdiyi yerlərdə təcrübə keçməli idik, ya da özümüz tapa bilərdik. Mən hər iki təcrübə yerimi özüm tapmışdım. İlk təcrübə yerim Şəmkir Su Elektrik Stansiyası oldu. Daha sonra “Şahdəniz - 2” layihəsində təcrübə keçdim. Layihədə bir neçə yerli və beynəlxalq neft, inşaat şirkəti birgə çalışırdı. İşlədiyim komandada bir çox beynəlxalq şirkətin əməkdaşları var idi. Çox yaxşı təcrübə proqramı olmuşdu.

Təcrübələrlə yanaşı, universitet vaxtı veb proqramlaşdırma kursuna da getdim. Düzdür, mexanika mühəndisliyində təhsil dönəmində proqramlaşdırma öyrədilir, amma çox dərin deyil. Daha sonra universitet dönəmində sayt yığmaq işləri ilə məşğul olurdum. Bəzən pul da qazanırdım.

● Universiteti bitirəndən sonra iş tapmağınız çətin olmadı?

● Son kursda oxuyanda bir neçə şirkətin nümayəndələri universitetimizə gəlib yeni məzun olan gənclər axtardıqlarını bildirdilər. Bizə iş təklif edirdilər. Mən İtaliyada təqaüdlü magistr təhsili qazanmışdım. Ona görə işlərə baxmadım. Getdim, bir ay oxuduqdan sonra Azərbaycana qayıtdım. İtaliyanın yaşamaq istədiyim ölkə olmadığını gördüm. Qərara aldım ki, özümə uyğun ölkə seçib orada təhsil alaram. Həm də düşündüm ki, bir müddət işləyim, sonra magistr təhsili üçün xaricə gedim. Azərbaycana qayıdandan bir ay sonra yerli texnologiya şirkətlərindən birində istehsalat mühəndisi olaraq işə başladım.

● Yaqin Lüksemburqa magistr təhsili üçün gedəndə bu ölkəni araşdırmısınız...

● İtaliyada təhsil üçün seçim edəndə universitetin dünya reytinqinə, təhsilinin nə qədər güclü olmasına baxmışdım. İkinci dəfə xaricdə təhsil üçün seçim edəndə artıq ölkə məsələsinə də xüsusi fikir verdim. Təhsilin keyfiyyəti, xərcləri, yaşamaq, işləmək kimi uyğun ölkə olmasına baxdım.

“DEDİLƏR Kİ, BU İŞ SƏNƏ MARAQSIZ GƏLƏCƏK”

● Lüksemburqda 2 il universitetdə çalışmısınız, sonra Almaniyaya getmisiniz. Niyə bu ölkədə qalmadınız?

● Magistr təhsilimi bitirəndən sonra - 2021-2023-ci illərdə Lüksemburq Universitetinin tərkibində Lüksemburq, Almaniya və Belçikadan bir sıra şirkət və institutların birgə çalışdığı “ComPrintMetal3D” araşdırma layihəsində mexanika mühəndisi olaraq çalışdım. Həmçinin, layihə boyunca müxtəlif jurnallarda dərc olunan, 3D printerlər və material elmlərini əhatə edən 3 ədəd məqalənin müəlliflərindən biri oldum. 2 il o layihədə çalışdıqdan sonra Almaniyaya köçdüm. Deyim ki, Almaniyaya “Tesla” üçün gəldim. Yoxsa Lüksemburqu daha çox bəyənirəm. “Tesla” hər bir mühəndisin çalışmağı xəyal edəcəyi şirkətdir. Ona görə belə bir ölkə dəyişikliyinə getdim.

● Universitetdəki layihədən sonra hansı şirkətlərə müraciət edirdiniz?

● Lüksemburqda bir neçə şirkətə müraciət etdim. 2 şirkət dedi ki, sənin magistr dərəcən var, bilik və bacarığın müraciət etdiyin vakansiya üçün yüksəkdir. Ona görə götürmədilər. Dedilər ki, bu mövqeyə götürərik, ancaq qısa müddət sonra iş sənə maraqsız gələcək, işini dəyişmək istəyəcəksən, biz yenə işçi axtarmalıyıq.

“Tesla”da da belə bir şey oldu. İlk olaraq material test mütəxəssisi üçün müraciət etmişdim. İnsan Resursları (İR) mütəxəssisi ilə müsahibəni keçdim, sonra mühəndisləri müsahibə etdi. Sualları cavablandırdım. Əmin idim ki, hər şey düzgündür. Onlar da həmin vakansiyanın mənim üçün aşağı olduğunu düşündülər, “yox” dedilər. Bir müddət sonra özləri əlaqə saxladılar ki, bizdə yeni vakansiyalar var, bunlar sizə daha uyğun olar, daha yuxarı vəzifələrdir. Maraqlıdırsa, müsahibə edək. Razılaşdım. Bu dəfə işə qəbul edildim. Hətta menecerə dedim ki, mənim magistr təhsilim var, əgər buna görə “Bu vakansiya sizin üçün aşağıdır” deyəcəksinizsə, müsahibəni dayandıraq, vaxt itirməyək (Gülür). Dedilər ki, yox, bu, karyera pilləndə sənə kömək edəcək.

> *“Komfort zonasından çıxmaq yetərli deyil, eyni zamanda üzərində işləməlisən. Doğru zamanda doğru yerdə olmağı da bacarmaq lazımdır.”*

“RİSKİ GÖTÜRMƏLİSƏN, BAŞQA ŞANSIN YOXDUR”

● “Tesla”da necə bir iş mühiti var?

● “Tesla”nı digər şirkətlərdən fərqləndirən odur ki, nəticəyə fokuslanırlar. Mən yeni başlayanda, ilk dedikləri bu oldu: “Nəyisə bilə də bilərsən, bilməyə də. Sənə bu tapşırıq verilibsə, risk et, götür, onu et”. Azadlıq verir, ancaq deyir ki, nəticəyə cavabdeh özünsən. Risk almalısan, başqa şansın yoxdur.

Eyni zamanda, iş yoldaşlarım öz sahəsinin peşəkarlarıdır. Rəqib şirkətlərdə çalışıb bura gələnlər var. Onlarla bir yerdə işləmək mən yaşda biri üçün üstünlükdür. O kadrlarla işləməyin özü də bir təcrübədir. Bu cür mühitdə işlədiyim üçün xoşbəxtəm.

● Məsələn, hansı nəticə bu şirkətdə qaneedicidir?

● Mənim üzərində işlədiyim bir layihə var idi. Şirkət əməkdaşları günlük işlərini görmək üçün fərqli əməliyyatlar zamanı nəticəyə çatana qədər 60 fərqli düyməyə basırdılar. Məndən bu prosesin avtomatlaşdırılması tələb olunurdu. Layihənin yekun nəticəsi olaraq indi 1 düyməyə basmaqla proses tam avtomatlaşdırılmış şəkildə yerinə yetirilir. Bu isə şirkətə həm vaxt qazandırır, həm də uzun prosesin mexaniki olaraq görülməsi zamanı baş verə biləcək, insan faktorundan qaynaqlanan xətaların önünə keçir. Yəni şirkətə nə verdiyinə və necə faydalı olduğuna baxırlar.

“ÖZÜNÜZÜ ƏZİYYƏT ÇƏKMİŞ KİMİ HİSS EDİRSİNİZSƏ...”

● “Tesla” kimi şirkətdə işə qəbul edilməyiniz əslində karyeranızda çox zaman almayıb. Bu, nəyin nəticəsində oldu?

● Birincisi, komfort zonamdan çıxmağımı deyərdim. Azərbaycanda işlədiyim şirkət kifayət qədər böyük, əməkhaqqım da normal idi. Amma baxdım ki, mən də 1 saat xərcləyirəm, “Amazon”, “Tesla”da işləyən də. Amma onun əldə etdiyi təcrübə və maliyyə mənimlə müqayisədə çoxdur. Fikirləşdim ki, insanın bir ömrü var, komfort zonamda oturaraq mən o şirkətlərdə çalışanların qazandıqlarını əldə edə bilmərəm. Qərar verdim ki, xaricdə təcrübə əldə etməyə ilk olaraq təhsil üçün gedim. Sonra orada işləməyə davam edim. Komfort zonasından çıxmaq yetərli deyil, eyni zamanda üzərində işləməlisən. Doğru zamanda doğru yerdə olmağı da bacarmaq lazımdır. Daim gündəmdən xəbərdar olmaq da önəmlidir. Məsələn, “Tesla” əvvəl Almaniyada yox idi. Amma siz xəbərdar olmalısınız ki, “Tesla” Almaniyaya gəlir. Deməli, iş elanların açır. Həmin dönəm müraciət etsəniz, şansınız daha çox olur. Çünki onlar işçi axtarırlar. 10 il sonra ora müraciət etsəniz, qəbul şansınız daha az olar. Onların oturuşmuş sistemi, komandası olur və daha seçicidirlər.

● Yəni uğur kompleks yanaşmanın nəticəsində gəlir.

● İndi vaxtında etdiklərinizin bəhrəsini görürsünüz. Məsələn, universitet vaxtı proqramlaşdırma kursuna getməsəydim, bəlkə də “Tesla”da bu mövqedə olmazdım. Çünki mexanika mühəndisinə developer bilikləri çox lazım olmur. Ancaq indi gördüyüm işdə lazımdır. O biliyimin olması üstünlük qatdı. Tələbə vaxtı əziyyət çəkdim, amma indi bəhrəsini görürəm. Ümumiyyətlə, özünüzü əziyyət çəkmiş kimi hiss edirsinizsə, deməli, siz inkişaf edirsiniz, nə isə təcrübə qazanırsınız. Zaman onsuz da keçir, onu dayandıra bilmirsən. Ona görə özümüzə daha çox dəyər qatmalıyıq.

“BAKCELL”İN DƏSTƏYİ İLƏ KEÇİRİLMİŞ VELOSİPED YARIŞININ ƏN SÜRƏTLİLƏRİ BƏLLİ OLDU

Bakcell şirkətinin dəstəyi ilə “Əziz Şuşa” beynəlxalq velosiped yarışı baş tutub. Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş yarışda dünyanın 14 ölkəsindən 100-dən çox idmançı mübarizə aparıb.

Əsl sürət bayramına çevrilmiş bu yarış Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi və Azərbaycan Velosiped Federasiyasının birgə təşkilatçılığı ilə baş tutub.

Beş mərhələnin nəticələrinə görə turnirin qalibi italyan velosipedçi Emanuele Ansaloni olub.

Qeyd edək ki, “Əziz Şuşa” beynəlxalq velosiped yarışı iyunun 7-də Bakıda start götürüb və 11 iyun tarixində Şuşa şəhərində yekunlaşıb.

Hal-hazırda Bakcell şirkəti “Bakcell ilə ən sürətli ol” şüarı ilə genişmiqyaslı kampaniya həyata keçirir. Xatırladaq ki, şirkət “NEQSOL Holding”in tərkibinə daxildir.

QİYMƏT ARTIMI ŞƏKƏRƏ DƏ ÇATDI

İLLİK TƏLƏBAT 250 MİN TONDAN ÇOXDUR

Dünyada şəkərin qiyməti artır. Son illərin rekord göstəriciləri qeydə alınır. Azərbaycanda da şəkərin qiyməti xammal idxalından asılıdır. Ekspertlər bu qiymət artımının ölkəmizdə də hiss edildiyi qənaətindədir.

BƏXTİYAR MƏMMƏDLİ
bextiyarmemmedli@kaspi.az

Dünya bazarlarında şəkərin qiyməti bahalaşmaqdadır. Bir müddət əvvəl London birjasında ağ şəkər fyuçerslərinin dəyəri 4,7 faiz artaraq bir ton üçün 705,5 dollar olub. Bu, 2011-ci ildən bəri ən yüksək səviyyədir. Hindistan, Braziliya, Pakistan və Tailanddan tədarükün azalması səbəbindən bu əmtəənin qiymətləri on ildən sonra rekord artım göstərib. Böyük Britaniyada artıq şirniyyat və içkilərin bahalaşması hiss olunub.

Rusiyada 2022-ci ildə şəkərin orta qiyməti 27 faiz artıb. 2023-cü ilin əvvəlindən çuğundur istehasalının artmasına və xaricə tədarükün məhdudlaşdırılmasına baxmayaraq, qiymətlər artmaqda davam edir.

Azərbaycan da şəkərin xammalını idxal edir. Təbii ki, xammalın qiymətində artım məhsulun qiymətinə təsirsiz ötüşmür.

"XAMMAL ÇATIŞMAZLIĞI YOXDUR, AMMA..."

Mövzu ilə bağlı "Kaspi" qəzetinə açıqlamasında iqtisadçı Pərviz Heydərov bildirdi ki, şəkərin qiymətinin qalxması qlobal iqtisadi vəziyyətdən irəli gəlir: "Bahalaşmaya bu kontekstdən yanaşmaq lazımdır. Şəkər istehsalı üçün tələb olunan xammal baxımından əslində, heç bir çatışmazlıq yoxdur. Bahalaşmanın əsas səbəbi tədarükün azalmasıdır. Belə ki, sözügedən məhsulun ixracı üzrə tanınmış ölkələr - Hindistan, Braziliya, Pakistan və digərləri ixraca məhdudiyyətlər qoyurlar. Səbəb isə ondan ibarətdir ki, özlərində şəkərə olan tələbatlarını ödəyə bilsinlər. Bu da xammal qıtlığı ilə əlaqədar deyil. Problem yanacağın qiymətinin baha olmasında, neftin dünya bazarındakı qiymətlərindədir".

P.Heydərov qeyd etdi ki, dünyada istehsal olunan şəkərin təxminən 80 faizi şəkər qamışından, yalnız 20 faizi şəkər çuğundurundan əldə olunur: "Qamışın qiyməti çuğundurdan xeyli ucuzdur. Neftin, yəni yanacaq məhsullarının qiymətinin baha olması ilə əlaqədar, məsələn, Hindistan etanol istehsalı üçün artıq bir müddətdir daha çox qamış xammalı göndərməyə başlayıb. Çünki Hindistan üçün yanacaq hazırlamaq indi şəkər istehsal edib ixrac etməkdən daha sərfəlidir. Benzin qiyməti ilə bağlı Braziliya da tədarükü azaldıb. Ona görə ki, yerli əhali bioyanacaqlardan istifadəyə keçdiklərindən bu ölkədə də şəkər qamışının əhəmiyyətli bir hissəsi bu malların istehsalına gedir.

Ölkəmizin şəkər sarıdan idxaldan asılı olduğunu nəzərə alsaq, təbii ki, sözügedən məhsulun bizdə də qiymətlərinin artacağı gözlənilməndir. Azərbaycanın illik şəkər və şəkər məhsullarına olan tələbatı 250 min tondan çoxdur. Şəkər tək qənnadı məmulatlarında deyil, həm də ət konservasiyasında, dəri sarğısında, tütün sənayesində, əczaçılıqda və plastik məmulatların istehsalı üçün istifadə olunur. Bu isə o deməkdir ki, şəkərin bahalaşması domino effekti yaradaraq digər ərzaq məhsullarının da qiymətlərini artıra bilər".

SON 12 İLİN ƏN YÜKSƏK SƏVİYYƏSİ

İqtisadçı Xalid Kərimli bildirdi ki, şəkər qiymətləri indeksi son bir neçə ayda artır: "Mart ayının statistikasına baxsaq, fevral ayı ilə müqayisədə 1,5 faiz yüksəlib. 2016-cı ildən sonra ən yüksək qiymət olub. Digər məhsullara baxanda şəkərdə qiymət artmımı bir az gec başladı. Əvvəllər o biri ərzaq qiymətləri, məsələn, ət, buğda, taxıl qalxanda şəkərin qiyməti o qədər sürətlə qalxmırdı. Amma ümumi şəkildə şəkərin qiyməti son 12 ilin ən yüksək səviyyəsinə çatıb. Bunun da müxtəlif səbəbləri var. Dünyada əsas şəkər istehsal edən ölkələr Hindistan, Tailand, Çin və Braziliyadır. Xüsusən də Hindistan, Tailand və Çində məhsul yığımının az olacağına dair narahatlıqlar şəkər qiymətlərini artırıb".

"İSTEHSALIMIZ SADƏCƏ QABLAŞDIRMADAN İBARƏTDİR"

X.Kərimli vurğuladı ki, birjada baş verən proseslərin Azərbaycan bazarına təsiri bir müddət sonra hiss edilir: "Çünki həm yolda, həm də anbarlarda olan mallar var. Yəni anbarların yenilənməsi, yolda olan malların çatması bir qədər zaman alır. Təbii ki, Azərbaycan daxildə şəkər istehsal edir. Amma Azərbaycan şəkər xammalını xaricdən alır. Hətta istehsalımız da sadəcə qablaşdırmadan ibarətdir. İlkin xammal olan şəkər çuğundurunu, eləcə də keyfiyyətli şəkəri idxal edirik. Bu baxımdan dünya bazarında baş verən proseslər Azərbaycan bazarına da təsir edir. Məhsullardan asılı olaraq qiymət artımı gedir".

Pərviz Heydərov

Xalid Kərimli

Kaspi
Təsisçi
Global Media Group

Baş redaktor
İlham Quliyev

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Siyasət şöbəsi – **Rufik İsmayılov, Bəxtiyar Məmmədli**
Beynəlxalq siyasət şöbəsi – **Azər Nuriyev**
Sosial həyat və gənclik şöbəsi - **Aygün Asimqızı, Aygün Əziz, Zərif Salmanlı**
Mədəniyyət və ədəbiyyat şöbəsi – **Təranə Məhərrəmova, Xanım Aydın**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli
Yayım və satış meneceri
Vadim Manafov

Ünvan
Bakı, Səməd Vurğun 34, AF Mall Ticarət Mərkəzi
Telefon: (012) 525 03 31
kaspiqazeti@kaspi.az

Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydiyyatdan keçib.
Lisenziya №022264, Qeydiyyat № V 64
Qəzet redaksiya kompyuter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
Sifariş: 1540
Tiraj: 2250
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

HİNDİSTANLI TURİSTLƏRİ AZƏRBAYCANA GƏTİRƏN SƏBƏBLƏR

KİNO ÇƏKMƏK, TOY ETMƏK, YOXSA İSTİRAHƏT?

Ölkəmizin dünyada 6 turizm nümayəndəliyi var ki, onların da biri Hindistandadır. Bakı ilə Dehli arasında birbaşa aviareys açılması hindistanlıların istirahət üçün Azərbaycanı seçməsinə imkan yaradıb. Nəticədə, Asiya ölkələri arasında ilk dəfə olaraq Hindistandan ölkəmizə gələn turistlərin sayı hətta ərəbləri də geridə qoyub.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Dövlət Statistika Komitəsi yanvar-mart aylarında Azərbaycana səfər edən əcnəbilərin sayını açıqlayıb. Statistikaya görə, gələnlərin 31,7 faizi Rusiya, 20,9 faizi Türkiyə, 8,4 faizi İran, 5,5 faizi Gürcüstan, 5 faizi Hindistan, 2,3 faizi Pakistan, 2,2 faizi Birləşmiş Ərəb Əmirlikləri, 2 faizi Qazaxıstan, 1,8 faizi Özbəkistan, 1,7 faizi Səudiyyə Ərəbistanı, hər birindən 1,6 faiz olmaqla Ukrayna və Belarus, 1,3 faizi Türkmənistan, 1,2 faizi Küveyt, 12,8 faizi digər ölkələrin vətəndaşları olub. Rəqəmlərdən aydın olur ki, Asiya ölkələrindən Azərbaycana ən çox turist Hindistandan gəlib. Hindistanlı turistlərin çoxaldığını şəhərin mərkəzi küçələrində gəzərkən real olaraq görmək mümkündür. Maraqlıdır, hindistanlı turistləri Azərbaycana gətirən səbəblər hansılardır?

HİNDİSTAN TURİST CƏLB ETMƏK ÜÇÜN HƏDƏF ÖLKƏDİR

Azərbaycan Ekoturizm Assosiasiyasının icraçı direktoru Samir Dübəndi deyir ki, Hindistan ilk dəfədir bu siyahıda 5-ci pillədədir: "Bu gözlənilən idi, say daha da artacaq. Çünki Hindistan turist cəlb etmək baxımından hədəf ölkələrdən olub. Azərbaycan Turizm Bürosu, Dövlət Turizm Agentliyi və müxtəlif turizm şirkətləri Hindistan bazarı üçün müxtəlif turizm təklifləri hazırlayıb. Əhali sayı çox olduğu üçün bu bazardan daha çox turist cəlb edə bilirik. Həmçinin Hindistan bazarında artıq müxtəlif təşviqat işləri aparılıb və aparılmaqdadır. Təbii ki, bu təşviqat Azərbaycana marağı artırır. Bugünkü statistika öncədən düşünülən addımların nəticəsidir".

BİLET QİYMƏTLƏRİ UYĞUN, VİZA REJİMİ ƏLÇATANDIR

Turizm mütəxəssisi vurğulayır ki, Bakı ilə Dehli arasında birbaşa aviareys açılması da Hindistan vətəndaşlarının istirahət üçün Azərbaycanı seçməsinə imkan yaradıb: "Şəhərlər arasında rahat bağlantı var. İkitərəfli gediş-gəliş biletləri normal, Hindistan bazarında xeyli insan üçün uyğun qiymətədir. Bundan əlavə, hindistanlı turistlərin Azərbaycana gəlməsi üçün viza rejimi rahat, əlçatandır. Bu da turistlərin sayına təsir edib".

Samir Dübəndi

BİZİ ONLARLA BAĞLAYAN BAĞLAR...

Təbii ki, ən əsas səbəblərdən biri də ölkəmizin gözəlliyidir. Mütəxəssis vurğulayır ki, bizi Hindistanla bağlayan maraqlı məqamlar da var: "Azərbaycan təbiəti, infrastrukturu, turizm imkanları, tarixi memarlıq abidələri, gəzməli-görməli yerləri, mətbəxi ilə çox məşhurdur. Həm də bizi Hindistanla bağlayan maraqlı məqamlar da var. Vaxtilə Azərbaycan ərazisində atəşpərəstliyin yayılması, onlara aid olan məbədlər, xüsusilə də Atəşgah məbədi, regionlarda olan bəzi abidələr onların marağına səbəb olur. İpək yolunu da yaddan çıxarmaq olmaz. Hansı ki, vaxtilə ölkələri ticarət əlaqələri ilə bağlayıb. Bu faktlar Hindistan turistləri üçün maraqlıdır".

HİNDİSTANLILARIN ƏRƏB TURİSTLƏRDƏN ÇOX OLMASI SÜRPRİZ OLDU

Hindistanlı turistlərin ölkəmizdə istirahət etmələri üçün səbəblər çox olsa da, onların sayının belə nəzərəçarpacaq dərəcədə artması həmsöhbətimiz üçün də gözlənilməz olub: "Təəccüblüdür. Düşünürəm ki, sayın çox olmasına səbəb turizmdən əlavə, Azərbaycan biznes mühitinin hindistanlılara uyğun olmasıdır. Ölkəyə gələn Hindistan vətəndaşlarının heç də hamısı turist deyil. Onların bir hissəsi işgüzar insanlardır. Burada investisiyalar üçün münbit şərait var. Bu səbəbdən də onlar Azərbaycan bazarına maraq göstərirlər".

HİNDİSTANLILAR FİLM ÇƏKMƏYƏ GƏLİR?

Turizmçi Ceyhun Aşurov isə deyir ki, Azərbaycan istirahət və film destinasiyası kimi Hindistanın marağını cəlb edir: "Ölkəmizin dünyada 6 turiz nümayəndəliyi var ki, onların da biri Hindistandadır. Bu nümayəndəliklər Azərbaycanın turizm məkanı kimi tanıdılmasına, uyğun marşrutların hazırlanmasına və həmin bölgələrdən turistlərin cəlb olunmasına xidmət edir. Hindistandan gələn turistlərin sayında əvvəlki illərlə müqayisədə 4 dəfədən çox artım olub. Bu ölkədən turistlərin çox gəlməsi 2016-cı ildən sonra başlayıb. Bu dövrdə il ərzində 6000-ə yaxın turist gəlirdisə, 2017-ci ildə bu rəqəm 14 minə çatıb. 2018-ci ildə 39 min, 2019-cu ildə 65 min olub. Pandemiya dövründə isə təbii olaraq, bu rəqəmlər azaldı. Hindistandan gələn turistlər individual deyil, əksəriyyəti qrup halında səfərlər edirlər. Pandemiyaya qədər biz görürdük ki, sözügedən ölkədən Azərbaycana kino çəkmək məqsədilə ayrı-ayrı qruplar gəlir. İçərişəhərdə, Bakıda, müxtəlif regionlarda kino çəkilişləri həyata keçirirdilər. Bu da filmi seyr edən insanlara Azərbaycanın maraqlı turizm ölkəsi kimi tanıdılmasında xüsusi rol oynayırdı".

Ceyhun Aşurov



HİNDİSTANLI TURİSTLƏR ÜÇÜN AZƏRBAYCAN MARAQLI TOY MƏKANIDIR

Mütəxəssis deyir ki, statistikanın artmasında ikinci ən böyük faktor Azərbaycanın hindistanlılar arasında toy məkanı kimi seçilməsidir: "Hindistan toyları dünyada məşhurdur. Onlar qohum-əqrəbaları ilə birlikdə bəzən 100 nəfərlik qruplarla ölkələrə gedirlər və toy edirlər. Bu, onlar üçün ənənədir. Biz pandemiyaya qədər şəhərdə olan 5 ulduzlu otellərin restoranlarında Hindistan toylarını müşahidə edirdik. İndi də elədir. Hindistanlı turistlər üçün Azərbaycan həm də maraqlı toy destinasiyasıdır".

HƏYATIMIZI RİSKƏ ATAN QONŞULAR

Doqquzmərtəbəli binalarda liftlərin yanında olan boşluq sahə bir çox hallarda sakinlər tərəfindən zəbt edilir. Lakin sovet vaxtı inşa olunmuş çoxmənzilli binalar vətəndaşların ümumi əmlakı sayılır. Bu hal qanunvericiliyə ziddir, həm də həyatımız üçün təhlükəlidir.

ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Köhnə çoxmənzilli binalarda rast gəlinən problemlərdən biri liftlərin yanında olan hissənin sakinlər tərəfindən zəbt olunmasıdır. Bu hissələr bağlanılır və sakinlər oradan müxtəlif məqsədlərlə istifadə edir. Belə olduqda bloklara nə pəncərədən gün işığı daxil olur, nə də hava. Mərtəbələrdə qaranlıq və havasızlıq hökm sürür. Digər bir məsələ isə təhlükəsizliklə bağlıdır. Bir fövqəladə hal baş verdikdə havanın təmizlənməsi və ya insanların təxliyəsi kimi hallar çətinləşir.

HƏMİN PƏNCƏRƏLƏR TƏK HAVALANDIRMA MƏQSƏDİ DAŞIMIR

Əmlak eksperti Ramil Osmanlı dedi ki, mənzil qanunvericiliyində çoxmənzilli binalarda həmin ərazilər pilləkən qəfəsləri adlanır: "Pilləkən qəfəsləri, meydançaları, liftlər, lift şaxtaları, binanın dam örtüyü, binanın ərazisi sahə mülkiyyətçilərinin ümumi əmlakı sayılır. Həmin pəncərələr tək havalandırma məqsədi daşımır. Eyni zamanda, hər hansı bir fövqəladə vəziyyət halında sakinlərin təxliyəsi, ayrı-ayrı mərtəbələrə müdaxilə üçün nəzərdə tutulur".

ŞİKAYƏT OLUNSA, MÜTLƏQ SÖKÜLMƏLİDİR

R.Osmanlının fikrincə, o sahələrin qapadılması qanunsuzdur: "Ümumi əmlakdan istifadə halları vətəndaşlar tərəfindən müəyyən olunan idarəetmə forması və ya sahə mülkiyyətçiləri tərəfindən ümumi yığıncaqda qərar şəklində verilir. Amma o binalar ki, dövlətin balansındadır, bu, artıq dövlət qurumlarının xüsusi razılığı əsasında həyata keçirilə bilər. Belə razılıqlar isə mövcud deyil. Həmin ərazilərin bağlanması qanunsuzdur. Yəni qonşular şikayət etsə, bu hal aradan qaldırılmalıdır. Oraya çən yerləşdirənlər, müxtəlif məqsədlər üçün saxlanc yeri düzəldənlər var".

BU BİNALAR VƏTƏNDAŞLARIN ÜMUMİ ƏMLAKI SAYILIR

Tikinti məsələləri üzrə ekspert Elnur Azadov bildirdi ki, doqquzmərtəbəlilərdə adətən lift meydançaları zəbt olunur: "Həmin sahə fövqəladə hallar baş verdikdə, adamların qorunmaq məqsədilə toplanması üçün nəzərdə tutulub. Eyni zamanda həmin sahə ehtiyac olarsa, yanğın söndürən maşınlar, qaldırıcı kranlar, xüsusi vasitələrlə vətəndaşların təxliyə olunması ilə bağlıdır. Hətta onların dəmir hissələri elə qurulurdu ki, üzüyuxarı qaldırılırdı, pəncərə açılırdı və altından çıxmaq imkanı olurdu. Yəni bu sahələr bina layihələndirilən vaxt 70-80-ci illərdə çox mükəmməl normativlərə uyğun olaraq hazırlanıb və inşa olunub. Bu baxımdan həmin sahələrin vətəndaşlar tərəfindən zəbt olunması, şəxsi məqsədlərlə nəyisə saxlamaq yeri kimi istifadə etmək qanuna ziddir".

E.Azadovun sözlərinə görə, vətəndaşlar idarəetmə forması qurmalı və binanın hissələrinin qanunsuz zəbt olunmasının qarşısını almalıdırlar: "Artıq 15 ilə yaxındır ki, qanunvericilikdə baş vermiş dəyişikliklərə uyğun olaraq sovet vaxtı inşa olunmuş çoxmənzilli binalar vətəndaşların ümumi əmlakı sayılır. Xidmət sahələri kimi ərazi idarələri, mənzil kommunal təsərrüfat birlikləri binaların içinə heç bir müdaxilə etmir, həmçinin xidmət də göstərmirlər. Bu kimi çoxmənzilli binalar vətəndaşların öz ixtiyarına verilib və onlar qanunla qeyd olunmuş qaydada müştərək cəmiyyət yaratmalı, bu kimi sahələri özləri idarə etməlidirlər. Lakin bu proseslər yalnız yeni tikilmiş binalarda baş verir. Digər 3-5-9 mərtəbəli binalarda müştərək cəmiyyətlər qurulmayıb. Bu boşluqdan da bəzi vətəndaşlar istifadə edir. Binanın konstruktiv elementləri, həyəti, qurğuları, həyətində olan yaşıllıqlar, müxtəlif ümumi tikililər, girişlər, çıxışlar, liftlər, pilləkənlər, binanın fasadı, çöl hissəsi - bunların hamısı ümumi əmlakdır və hamıya aiddir. Onların qorunması və idarə olunması həmin binada yaşayan mülkiyyət sahiblərinin üzərinə düşür".

BƏZƏN HƏMİN HİSSƏLƏR KİMLƏRİNSƏ İSTİFADƏSİNƏ VERİLİR

Ramil Osmanlı

Təhlükəsizlik məsələləri üzrə ekspert Elmar Nurəliyev qeyd etdi ki, əsasən yük liftinin ərazisində bu hallar baş verir: "Binalar hansı qurumun balansındadırsa, istismarını kim həyata keçirirsə, onlar tərəfindən də təhlükəsiz istismarı həyata keçirilməlidir. Bu, mənzil kooperativləri də, mənzil istismar birlikləri də, mənzil müştərək cəmiyyəti də ola bilər. Yəni sakinlər tərəfindən binanın konstruksiyasına hər hansı bir müdaxilə, ümumi istifadədə olan hissələrin hansısa şəxsə verilməsi qadağandır. Bu, binanın zirzəmisi də, qarajı da, lift şaxtalarının yanındakı boşluq da ola bilər. Həmin hissələr əsasən yüklərin daşınması üçün olan liftin yeridir. Ancaq əfsuslar olsun ki, bəzən həmin hissələr kimlərinsə istifadəsinə verilir. Həmin şəxslər tərəfindən şkaf, qarderob, material yığmaq üçün istifadə olunur".

TEZ ALIŞAN MƏHLULLAR, YAXUD DA QAZ BALONU OLA BİLƏR

Elnur Azadov

E.Nurəliyevin sözlərinə görə, vətəndaşlar diqqətli olmalıdır ki, həyatları üçün bir təhlükə yaranmasın: "Hər hansı bir hadisə anında həmin şkaflarda, dolablarda kimyəvi tərkibli material, məhsullar, yanma riski yüksək olan, tez alışan məhlullar, yaxud qaz balonu ola bilər.

Digər məqam nəinki həmin liftlərin yanındakı ara hissə, eyni zamanda liftin yanında ehtiyat çıxış qapısına tərəf gedən pilləkənlərin qəfəslərində bu cür şkafların, dolabların düzəldilməsi hallarıdır. Əlbəttə, bu da hər hansı bir hadisə zamanı insanların tez bir zamanda rahat və təhlükəsiz şəkildə təxliyə olunmasına maneçilik yaradır. Bu hissələr hər zaman boş qalmalıdır ki, hər hansı bir hadisə anında insanlar həmin yerdən təhlükəsiz formada və tez bir şəkildə təxliyə olunsunlar".

Elmar Nurəliyev

EVİMİZİ ƏCNƏBİLƏR ALIR

2022-ci ildə 40 fərqli ölkədən vətəndaşlığı olmayan 1577 əcnəbi Azərbaycanda mənzil əldə edib. Rusiya, Gürcüstan və Türkiyə vətəndaşları ilk üçlükdədirlər. 4-cü və 5-ci yerləri İran və Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları tutur.

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Son vaxtlar ölkəmizdə əcnəbilərin daşınmaz əmlak bazarına artan marağı müşahidə olunur. Mənzil alqı-satqısı ilə məşğul olan rieltorlar da bu faktı təsdiqləyirlər. Onların sözlərinə görə, əcnəbi vətəndaşlar əsasən şəhərin mərkəzindəki mənzillərlə maraqlanırlar. Bəs xarici vətəndaşların Azərbaycan ərazisində mənzil alması qanunla necə tənzimlənir? Daha çox hansı ölkənin vətəndaşları Azərbaycanda yaşamağa maraq göstərir?

KİMLƏR TORPAQ ALA BİLMƏZ?

Hüquqşünas Sabir Qəniyev deyir ki, qanunvericiliyə əsasən, əcnəbilərin Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər əmlak əldə etmək imkanları var. Amma ölkəmizdə xarici vətəndaş torpaq sahəsinə sahib ola bilməz: "Xarici vətəndaş və ya vətəndaşlığı olmayan şəxs ölkəmizdə ev, villa, mənzil və digər əmlak növlərini ala bilər. Əcnəbilərin torpaq əldə etməsi ilə bağlı isə bir neçə hüquqi məqamlar var. Torpaq Məcəlləsinin 48-ci maddəsinə əsasən, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər, xarici hüquqi şəxslər, beynəlxalq birliklər və təşkilatlar, habelə xarici dövlətlər Azərbaycan Respublikasında torpaq sahələrini yalnız icarə hüququ əsasında əldə edə bilərlər".

DÜNYA TƏCRÜBƏSİNDƏ DƏ MÜƏYYƏN MƏHDUDİYYƏTLƏR VAR

Hüquqşünasın sözlərinə görə, dünya təcrübəsində də əcnəbilərin torpaq alışı yerli qanunlardan asılıdır və müəyyən məhdudiyyətlər var: "Əcnəbilərin torpağa mülkiyyət hüququnun əldə edilməsi imkanları və bununla əlaqədar məhdudiyyətlər dövlətlərdə mövcud olan demoqrafik, siyasi, iqtisadi amillərlə yanaşı, ölkənin milli təhlükəsizliyi, sosial və etnik müxtəlifliyi ilə bağlıdır. Ölkəmizdəki yanaşma Hindistan, Səudiyyə Ərəbistanı, BƏƏ, Çin Xalq Respublikası və digər ölkələrdə də tətbiq olunur".

Əmlak eksperti Mülkədar Rüstəmov deyir ki, 2022-ci ildə 40 fərqli ölkədən vətəndaşlığı olmayan əcnəbi Azərbaycanda mənzil əldə edib. Ekspertin sözlərinə görə, ötən il 1577 əcnəbi Azərbaycanda daşınmaz əmlaka sahib olub: "Rusiya, Gürcüstan və Türkiyə vətəndaşları ilk üçlükdədirlər. 4-cü və 5-ci yerləri İran və Birləşmiş Ərəb Əmirliklərinin vətəndaşları tutur. Bu il həm də Pakistan, Hindistan vətəndaşlarının əmlakla bağlı müraciətlərinin artdığını müşahidə edirik".

MƏNZİLLƏRİ DAHA ÇOX ŞİRKƏT SAHİBLƏRİ ƏLDƏ EDİRLƏR

Əcnəbilərin Azərbaycanda mənzil alma şərtlərinə gəldikdə isə ekspert deyir ki, onlar çıxarışla təmin olunmuş istənilən tikilini ala bilərlər: "Hər hansı bir ölkə vətəndaşı Azərbaycanda müəyyən bir məbləğə, təxmini 100-200 min manat civarında mənzil aldıqda, yaşayışla və vətəndaşlıqla bağlı sənədlər əldə edə bilər. Son dövrlər müşahidələrimizə əsasən görürük ki, mənzilləri daha çox şirkət sahibləri, burada biznes quran şəxslər alırlar".

UKRAYNA VƏTƏNDAŞLARI ÇOX YATIRIM EDİRLƏR

Ekspertin sözlərinə görə, əcnəbilərin ölkəmizə axın etməsinin, burada məskunlaşmaq istəməsinin səbəbi Azərbaycanın təhlükəsiz ölkə imici qazanmasıdır: "Xarici ölkələrdə yaşayan, vətəndaşlıq alan həmvətənlərimizin də daşınmaz əmlak bazarına investisiyası müşahidə olunur. Son vaxtlar isə daha çox Türkiyə və Ukrayna vətəndaşlarının əmlak almaq istəyinin şahidi oluruq. Xüsusilə Ukrayna vətəndaşları çox yatırım edirlər. Şəhərimizin inkişafı, sabitliyi, ictimai asayişin qorunması, Azərbaycanın təhlükəsiz ölkə kimi imic qazanması əcnəbilər üçün əsas faktorlardandır".

Mülkədar Rüstəmov

ƏMLAK BAZARINA SƏRMAYƏ CƏLBİ MÜSBƏT AMİLDİR

Əcnəbilərin Azərbaycanda daşınmaz əmlak bazarına sərmayə qoymasının iqtisadi faydaları çoxdur. Millət vəkili Vüqar Bayramlı deyir ki, əmlak bazarına investisiyaların cəlb edilməsi real sektora sərmayə qoyuluşu baxımından vacibdir. Millət vəkili vurğulayır ki, inkişaf etmiş ölkələrdə əmlak bazarındakı dəyişiklik makroiqtisadi vəziyyətə təsir göstərən faktorlardandır: "İnkişaf etmiş ölkələrdə baş makroiqtisadi vəziyyəti təyin edərkən əmlak bazarındakı indeksdən istifadə olunur. O indeksə uyğun olaraq iqtisadi vəziyyətin qiymətləndirilməsi həyata keçirilir. Əmlak bazarına sərmayə cəlbi müsbət amildir. Bu, həm də real sektora ol an investisiyadır. Əcnəbilərin daşınmaz əmlak bazarına olan marağı göstərir ki, əmlak bazarı cəlbediciliyini qoruyub saxlayır".

BU SƏRMAYƏLƏR PASSİV OLMAMALIDIR

Millət vəkili vurğulayır ki, xarici sərmayənin əmlak bazarına cəlbi bütövlükdə iqtisadiyyatın bundan faydalanmasına gətirib çıxarır: "Bu kontekstdə əmlak bazarında sərmayə qoyulmasının genişləndirilməsi vacibdir. Amma bu sərmayələr passiv olmamalıdır. İnvestisiyanın sonradan real sektora, xüsusilə də inşaat sektoruna daxil olması çox vacibdir. Bu baş verərsə, bütövlükdə iqtisadiyyatın faydalanmasına gətirib çıxarır. Əmlak bazarına daha çox sərmayənin cəlbedilməsi pozitivdir və bu bazarın dayanıqlığını və cəlbediciliyini göstərən faktorlardan biridir".

2022-Cİ İLDƏ FƏRQLİ ÖLKƏLƏRDƏN AZƏRBAYCANDA DAŞINMAZ ƏMLAKA SAHİB OLAN ƏCNƏBİLƏR

Vüqar Bayramlı

BU KİMİ FORS-MAJOR HALLAR OLMASA...

Sabir Qəniyev

Elnur Azadov

Əcnəbilərin əmlak bazarında yer tutmasının qiymətləri bahalaşdırması məsələsinə gəldikdə isə inşaat eksperti Elnur Azadov deyir ki, ötən il bazarda qiymətlər ciddi şəkildə bahalaşdı: "Azərbaycan müstəqillik əldə etdikdən sonra daşınmaz əmlak tarixində ən böyük axın Rusiya-Ukrayna müharibəsinin başlanğıc dövrünə düşdü. Həmin ərəfədə də tikinti şirkətləri qiymətləri qaldırmağa başladılar. Bu, bazara ciddi şəkildə təsir etdi. Bazarda olan tikinti şirkətlərinin 20-30 faizi böyük axın olacağını düşünürdü. Üstəlik, o vaxt inşaat materiallarının qiyməti qalxır, inşa olunan binaların sayı da bir o qədər çox deyildi. Yəni rəqabət yüksək olmadığına görə, onlar qiymətləri müvəqqəti qaldırdılar. Bu təxminən, keçən il oldu. Ondan sonra qiymətlər yavaş-yavaş aşağı düşdü. Bu kimi fors-major hallar olmasa, 30 illik dövrdə əcnəbilərin Azərbaycan bazarından ev alması qiymətlərə ciddi təsir etməyib".

Özbəkistanda idarəetmə sahəsində çalışan azərbaycanlı Mehriban Rəhimova: “Bu ölkədə bütün millətlərə diqqət və qayğı var, millətlərarası dostluq dövlət siyasətinə çevrilib. Bu ölkədə xoşbəxtik. Amma Vətən deyəndə içimizdə nəsə sızıldayır”.

ÖZBƏKİSTANIN AZƏRBAYCANLI ÖVLADI

SÖHBƏTLƏŞDİ
Tərənə Məhərrəmova
taranamaharramova@kaspi.az

Özbəkistanda bələdiyyə modelini xatırladan məhəllələr fəaliyyət göstərir. Ağsaqqallar tərəfindən idarə olunan belə məhəllələr ölkənin hər bir bölgəsində var. Bu məhəllələrdə xalqların adət-ənənəsinə hörmətlə yanaşılır, insanlar bir-birinə qaynayıb qarışır, böyükdən-kiçiyə hamı bir-birinə hörmət edir.

Azərbaycanlılar yaşayan məhəlləni də paytaxt Daşkənddə hamı tanıyır. Həmvətənlərimiz Mirabad rayonunun Temiryolçilar (dəmiryoluna yaxın yerləşir) məhəlləsində yaşayırlar.

ARTIQ 41 İLDİR...

Özbəkistanda səfərdə olarkən azərbaycanlılar yaşayan bu məhəlləyə baş çəkdik. Məhəllə rəisi Mehriban Rəhimova və digər fəal soydaşlarımızla görüş onların həyat və şəraiti ilə yaxından tanışlığa imkan yaratdı.

Mehriban xanım özünü “Özbəkistanın azərbaycanlı övladı” adlandırır. Təsirli həyat hekayəsi var. Əsli-kökü Zəngəzurdan olsa da Şəki şəhərində doğulub. Qayınanasıgil 1905-ci ildə ermənilər tərəfindən deportasiya edilib. Əvvəlcə Türkiyəyə, sonra Özbəkistana köç ediblər: “Qayınanamgil (xalam) 4 bacı, bir qardaş olublar. Onlar Zəngəzurdan çətin yollarla gələrkən 3 yaşlı bacıları donaraq tələf olub. Nənəm öz əmisinin oğluna ərə gedib və Şəkidə qalıb. Xalam isə bir bacısı, qardaşları və əmiləri ilə Daşkəndə köç edərək orada məskunlaşıblar. Sonra bir çox qohum-əqrəbanı çəkib gətiriblər və sayları çoxalıb. Dəmiryoluna yaxın ərazidə məskunlaşdıqları üçün buralarda dəmiryolunda fəhlə, ocaqçı işləyiblər. Bu ərazilər boşluq olub. Tədricən hamıya torpaq sahəsi verilib, özlərinə ev-eşik qurublar. Sonrakı illərdə də oxumağa, işləməyə gələnlər olub. Evlənib, burada qalıblar. Nəticədə azərbaycanlıların sayı çoxalıb və yerli millətə qaynayıb-qarışıblar. Mən də 19 yaşından bu ölkəyə gəlmişəm. Artıq 41 ildir ki bu gözəl və mehriban ölkədə yaşayıram. Burada ailə qurmuşam. Üç övladım var”. M.Səfərova gəncliyindən bəri bir çox sahələrdə çalışıb. İşinə məsuliyyəti, idarəetmə bacarığı, xeyirxahlığı onun yaşadığı məhəllənin sədri (rəisi) vəzifəsinə yüksəlməsinə səbəb olub: “Mənə xalqım hörmət edib, bu məhəllədə sədr seçib və 16 ildir məhəllə komitəsinin sədriyəm”. M.Rəhimovanın təmsil etdiyi məhəllədə 3500-dən çox əhali yaşayır. Onların 70 faizi - 2400-ü azərbaycanlıdır: “Məhəlləmizdə müxtəlif xalqların nümayəndələri yaşayır. Biz bir ailə kimi dolanırıq. Sevincimiz də, kədərimiz də birdir. Bir-birimizin xeyir-şərində yaxından iştirak edirik. Tarixi günlərimizi, milli bayramlarımızı birlikdə qeyd edirik. Bu, birgəyaşayışın ən gözəl modelidir”.

> *Özümüzü Azərbaycandan ayrı təsəvvür etmirik. Tez-tez gedib-gəlmək mümkün olmasa da, ürəyimiz oradadır. Şuşada, Zəngilanda, Qubadlıda, Laçında, Füzulidə, Ağdamda, Cəbrayılda... Vətənə salam deyin...*

VƏTƏN DEYƏNDƏ...

Məhəllə sədri deyir ki, özlərini Özbəkistanda doğma Vətəndəki kimi hiss edirlər: “Bu ölkədə bütün millətlərə diqqət və qayğı var, millətlərarası dostluq dövlət siyasətinə çevrilib. Bu ölkədə xoşbəxtik. Amma Vətən deyəndə içimizdə nəsə sızıldayır...”

Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana səfəri zamanı, Daşkənddə Heydər Əliyev meydanının açılışında Mehriban Səfərova da prezidentlər qarşısında çıxış edib. “Sən bizim baş tacımızsan” deyə dövlətimizin başçısına ürək sözlərini söyləyib. Həmçinin, sədri olduğu məhəllənin rəhbəri olaraq Özbəkistandakı həyat şəraitlərinə görə ölkə Prezidenti Şavkat Mirziyoyevə təşəkkür edib. “Mən anayam. Analar həm öz övladlarının, həm də bütün dünyanın xalqlarının dincliyini, xoşbəxtliyini daim Allahdan arzu edirlər. Canım Özbəkistandır, ana canım Azərbaycandır, hər ikisini eyni dərəcədə sevirəm” deyib.

Məhəllə sədri fəaliyyətinə görə Özbəkistan Prezidenti tərəfindən “Xalqlar dostluğu” medalı ilə təltif edilib. 60-dan çox fəxri diplom, təşəkkürnamə alıb. Bu yaxınlarda isə “Ən yaxşı məhəllə rəisi” müsabiqəsinə qatılıb və avtomobillə mükafatlandırılıb. Bütün bunları gərgin əməyinin bəhrəsi və xalqlar arasındakı münasibətlərə töhfəsi hesab edir.

GƏNCLƏRLƏ VƏTƏN ARASINDAKI BAĞ

M.Rəhimova Daşkənddə fəaliyyət göstərən Azərbaycan diasporunun fəaliyyətindən razılıq edir: “Diasporumuz fəaldır. Sədr Mobil Məmmədov əslən Azərbaycanın Göygöl rayonundandır. O, bütün azərbaycanlıları ətrafına yığır, vətəni unutmağa qoymur”. M.Rəhimova hesab edir ki, Özbəkistanda yaşayan azərbaycanlı gənclərin də Vətənlə əlaqəsi möhkəm qurulmalıdır: “Gənclərimizdə Azərbaycan ruhu var. Onlar da Vətəni görmək istəyirlər. Gənclərimizlə Vətən arasında bağlar olmalıdır. Yoxsa sonra dili də, milləti də yaddan çıxaracaqlar. Bunları unutmamaq üçün gənclərin əlaqəsini möhkəmləndirmək, gediş-gəlişlərinə dəstək göstərmək lazımdır. Nə qədər çox gedib-gəlsələr, o qədər Azərbaycanı tanıyacaq və sevəcəklər”.

“SİZİ ŞUŞAYA ÇAĞIRACAĞIQ”

Məhəllə sədri Azərbaycana ara-sıra səfər etdiyini, doğma yurd-yuvasına baş çəkdiyini deyir. Amma həm özü, həm də Özbəkistanda yaşayan azərbaycanlılar işğaldan azad edilmiş torpaqlarımızı görmək arzusundadırlar: “Özümüz gedib-gəlirik. Amma dövlət tərəfindən də diqqət olsa, yaxşı olar. Bilərdik ki, orada da bir vətənimiz var. Yaxınlarda Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Özbəkistana səfər etmişdi. Onunla bərabər bir sıra rayonun nümayəndələri də gəlmişdi. “Sizi Şuşaya çağıracağıq” deyə Şuşanın nümayəndəsi bildirdi. Çox istərdim ki, Azərbaycanın Diasporla İş üzrə Dövlət Komitəsi Özbəkistanda yaşayan azərbaycanlıların da hissə-hissə işğaldan azad olunmuş torpaqlarımızı, müqəddəs Şuşa şəhərini görməsinə şərait yaratsın. Bu, onların Vətən yanğısına su çiləyər”.

M.Rəhimova Azərbaycandan Özbəkistana səfər edən hər bir həmvətənimizin gəlişini bayram hesab edir: “Hər Vətəndən gələni görəndə sanki Azərbaycana toxunuram. Orada nə baş verirsə diqqətlə izləyirik. Özümüzü Azərbaycandan ayrı təsəvvür etmirik. Tez-tez gedib-gəlmək mümkün olmasa da, ürəyimiz oradadır. Şuşada, Zəngilanda, Qubadlıda, Laçında, Füzulidə, Ağdamda, Cəbrayılda... Vətənə salam deyin...”

O XAL NƏ XALDIR QOŞA DÜZDÜRMÜSƏN?

“Xoşxassəli, kompleks yaratmasından asılı olmayaraq, gündəlik qıcıqlanmaya məruz qalan xalların götürülməsi məsləhətdir. Günəş şüası da xala birbaşa təsir edir. Solyari şüasının gücü isə günəş şüasının gücündən min dəfə çoxdur. Bu da dərini (xalları) qıcıqlandırır, həm də dəri xərçənginin yaranması üçün şərait yaradır”

XANIM AYDIN
khanimaydin@kaspi.az

Bəzən deyirlər ki, xalı çox olan adamın düşməni də çox olar. Bu, əlbəttə ki, xalq deyimidir. Bəs doğrudan da, xalların çox və ya az, böyük və ya balaca, müxtəlif rəngdə və ölçüdə olmağı nəyin göstəricisidir? Biz hansı hallarda narahat olmalıyıq? Bütün bu suallara gəlin birlikdə aydınlıq gətirək. Ondan başlayaq ki, xallar, müasir dildə desək nevus melanositdən ibarət piqment ləkələri və düyünləridir.

SİMPTOMLARA DİQQƏT EDƏK

Azərbaycan Tibb Universitetinin müalicə-profilaktika fakültəsinin dekanı, dermatoveneroloq Elşad Novruzov deyir ki, bütün insanların bədənində xal var: “Xalın az olması da, çox olması da normal haldır və bundan narahat olmağa dəyməz. Xallar – törəmələri xoşxassəli, xərçəngönü və artıq dəri xərçənginə keçən törəmələr kimi üç qrupa bölünür. Xoşxassəli xallar simmetrik, eyni rəngli olur. Amma bir də var ulduz kimi, kələ-kötür xallar. Bu cür xalların artıq bədxassəli olmasına şübhə var. Bundan başqa, xoşxassəli xallar qanaxmaya meyilli, ağrılı, göynəməli deyil. Amma bədxassəlidə ağrıma, göynəmə, qaşınma ola bilər. Bunlar ilkin simptomlardır. Hər bir insan bunlara diqqət yetirməli, xallarını nəzarət altında saxlamalıdır. Əgər bədəndə uzun müddət olan xalın üstündə heç bir dəyişiklik yoxdursa, qaşınma, göynəmə vermirsə, qanaxmaya meyilli deyilsə, bu, xoşxassəli xaldır. Amma qısa müddət ərzində ölçüsü böyüyürsə, rəngində dəyişiklik baş verirsə, artıq narahat olmaq lazımdır. Rəng dəyişikliyi deyəndə nəyi nəzərdə tuturuq? Qəhvəyi, qara, göy, mavi və s. rəngli xallar var. Xal bütövlükdə eyni rəngdədirsə, bundan qorxmaq lazım deyil. Amma bəzən bir xalın içində bir neçə rəngin çalarını görürük. Məsələn, qara fonun içində göy və ya qəhvəyi rəng müşahidə edirik. Yəni bir xalda bir neçə rəng çaları görürüksə, artıq şübhələnmək, həkimə müraciət etmək lazımdır. Əgər xalın simmetriyası pozulubsa, (xalı sanki gözlərinizlə tən ortadan bölün və “hissələrinə” diqqətlə baxın. Əgər hissələr bir-birindən fərqlənirsə), kənarları nahamar olub, dalğavari və dişli şəkil alıbsa, rəngi dəyişilibsə, birdən-birə böyüyübsə, üzərində çatlar, qabıqlar əmələ gəlibsə, qanamağa başlayıbsa, bu, təhlükə simptomudur”.

XALDAN QURTULMAQ OLAR?!



Həkim bəzən insanların xallardan qurtulmaq istəyindən də danışdı: “Xoşxassəli xallar əgər insanda hər hansı bir kompleks yaratmırsa, qala bilər. Məsələn, üz nahiyəsində olan və görünüşü ilə bağlı kompleks yaradan xallar götüzdürülə bilər. Amma heç bir narahatlıq yaratmırsa, qalsın. Kişilər hər gün üzlərini təraş edir. Əgər üzündə xoşxassəli xal varsa, təraş vaxtı qıcıqlanmaya məruz qalır, zədələnir, mikro və böyük travmalar da alır. Bu da xalın növbəti mərhələyə keçməsinə səbəb olur. Yəni xoşxassəli olmasından, kompleks yaratmasından asılı olmayaraq, gündəlik qıcıqlanmaya məruz qalan xalların götürülməsi məsləhətdir. Günəş şüası da xala birbaşa qıcıqdır. Solyari şüasının gücü isə günəş şüasının gücündən min dəfə çoxdur. Bu da dərini (xalları) qıcıqlandırır, həm də dəri xərçənginin yaranması üçün şərait yaradır. Təsəvvür edin, biz dənizə getməyi – günəş şüalarının qəbulunu səhər saat 7-11 arası, bir də axşam saat 5-7 arası tövsiyə edirik. Qalan vaxtlar günəş şüası ziyandır, o ki ola solyari. Xanımlar lazer epilyasiyasından istifadə edirlər. Lazerin işi dəridə tünd nöqtələri – tükləri tapıb vurmaqdır. Xallar da tünddür, deməli, onları da vurur və xallar qıcıqlanır. Geyimin özü də qıcıq mənbəyi sayıla bilər”.

Elşad Novruzov

MÜAYİNƏ VƏ DİAQNOZ DÜZGÜN OLMALIDIR

Həkim xalların müayinəsi ilə bağlı tövsiyələrini də verdi: “Xallar bir neçə üsulla müayinə olunur. Birincisi görüntü – vizual üsulla olan müayinədir. Yəni gözlə görünməsi mümkün olan müayinə edilir. Amma bir də var konkret müayinə. Konkret müayinə dermatoskopla aparılır. Xala dermaskopla baxılır, diaqnoz qoyulur. Lap dəqiq müayinəyə ehtiyac yarananda, o xaldan nümunə götürüb biopsiya edilir. Yəni xal hüceyrə səviyyəsində yoxlanılır. Bu, düzgün diaqnoz qoymaq üçün vacibdir. Xalın götürülmə üsulu məhz müayinədən və qoyulan diaqnozdan asılıdır. Əgər xal bəd xassəlidirsə, götürəndə xal ətrafındakı 1 sm normal dəri ilə bir yerdə götürülməlidir. Əgər xal xoşxassəlidirsə, onda ancaq özü, ətrafa dəymədən götürülür. Xalın götürülmə üsulları da müxtəlifdir. Lazerlə, kaoqulyatorla və s. ilə yanaşı, cərrahi üsul da tətbiq olunur. Cərrahi üsula o halda müraciət edirik ki, xalın əsası, bünövrəsi dərinin aşağı qatlarından başlayır. Amma səthdə olan xalları götürmək üçün digər üsullar tətbiq olunur. Xalın xərçəngönü mərhələsində çox ehtiyatlı olmaq lazımdır. Çünki xal artıq xərçəngə keçmək üzrədir. Belə xalı nə qədər tez götürsək, o qədər yaxşıdır. Xərçəng mərhələsində isə aşkarlanan kimi dərhal götürülməlidir. Gecikdirilərsə, orqanizmə yayılması baş verəcək. Bu baxımdan xalların götürülməsi üçün ilk növbədə peşəkar diaqnoz qoymalıdır ki, ona əsasən götürülmə üsulu seçilsin. İkincisi, götürəndən sonrakı mərhələ düzgün aparılsın. Düzdür, indi kim, harada, necə gəldi bu işi görür. Bu cür qeyri-peşəkar işin fəsadları dərhal bilinmir. İllər sonra müxtəlif fəsadlar yaranır ki, onda da gec olur”.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
17 İYUN ŞƏNBƏ 2023
www.kaspi.az

VAXT GEDİR, YENİ TRANSFERLƏRSƏ YOXDUR

Bu il Azərbaycanı avrokuboklarda təmsil edəcək klublar da bunu nəzərə alaraq sürətli şəkildə transfer çalışmalarına start verməlidirlər. Amma hələ ki, transfer bazarında ciddi hərəkətlilik müşahidə olunmur.

Qətərdəki dünya çempionatı ilə əlaqədar bu il futbol mövsümü bir az gec başa çatdı. Nəticədə klubların yeni mövsümə hazırlıq, transfer çalışmaları ilə bağlı vaxtları o qədər də çox deyil. Bu il Azərbaycanı avrokuboklarda təmsil edəcək klublar da bunu nəzərə alaraq sürətli şəkildə transfer çalışmalarına start verməlidirlər. Amma hələ ki, transfer bazarında ciddi hərəkətlilik müşahidə olunmur.

"QARABAĞ"DA "YARPAQ TÖKÜMÜ"

Ölkəmizi ÇL-də təmsil edəcək son çempionumuz Ağdamın "Qarabağ" klubu hələlik "yarpaq tökümü" ilə diqqət çəkir. Çempionat başa çatanda klubun 2 tanınmış üzvünün ayrılığı ilə bağlı qərarlar elan olundu. Xorvatiyalı Filip Ozobiçlə başa çatan müqavilə yenilənməyib. Bu qərarı klub özü verib. Başa çatan mövsümdə komandanın əsas bombardiri Ramil Şeydayev də getmək qərarı verib. O, Asiyaya üz tutaraq Taylandın "Buriram Yunayted" klubu ilə müqavilə imzalayıb.

Klubun digər oyunçuları ilə bağlı da transfer xəbərləri yayılmaqdadır. Məsələn, makedoniyalı yarımmüdafiəçi Marko Yankoviçlə Rusiyanın "Ural" klubunun maraqlandığı barədə məlumatlar var. Mətbuatda tez-tez baş məşqçinin oğlu Musa Qurbanlının da Avropa klublarının maraq dairəsində olması ilə bağlı xəbərlər yer alır.

Əsas heyətdə yer almaqda çətinlik çəkən yerli futbolçular Qara Qarayev və İsmayıl İbrahimlinin də yeni klub axtarışında olduqları deyilir. Eyni problemlə üzləşən kapitan Maksim Medvedevin isə karyerasını bitirmək haqqında düşündüyü barədə xəbərlər yayılır.

Bütün bunların fonunda "Qarabağ" hələlik yalnız 1 transfer reallaşdırıb. Ötən mövsümü "Zirə"də keçirən Hamidu Keyta ilə müqavilə imzalanıb. Bu baxımdan azarkeşlər klubun yeni transferlər edəcəyini səbirsizliklə gözləyirlər.

"SABAH"IN KAŞUK PROBLEMİ

Bu il ölkəmizi Konfrans Liqasında təmsil edəcək "Sabah"ın düşərgəsində də sakitlikdir. Komandanın əsas problemi ötən mövsümdə kollektivin liderinə çevrilən Aleksey Kaşukun heyətdə saxlanılmasıdır. Müqavilə ilə Donetsk "Şaxtyor"una məxsus olan yarımmüdafiəçi hazırda ölkəsinin gənclər yığmasının heyətindədir. Onun yığmanın düşərgəsindən "Şaxtyor"un düşərgəsinə yollanacağı gözlənilir. Yayılan xəbərlərdən belə anlaşılır ki, "Sabah"ın ukraynalı yarımmüdafiəçini heyətdə saxlamaq şansı çox azdır. Bu azmış kimi, geridə qalan mövsümdə müdafiə xəttinin dayağı olan mərkəz müdafiəçisi Abdulaye Ba da "Sabah"dan getmək qərarı verib. Bunların fonunda komanda hələlik heç bir yeni oyunçu almayıb.

"NEFTÇİ" 7-8 TRANSFER PLANLAŞDIRIR

Eyni durğunluq Konfrans Liqasındakı digər təmsilçimiz, ötən mövsüm həm ölkə çempionatında, həm kubokda azarkeşlərini məyus edən "Neftçi"də yaşanır. Kubokun final oyunundan öncə klubun prezidenti Kamran Quliyev artıq transfer çalışmalarına başladıqlarını açıqlamışdı: "Yaxşı transferlər etməyi planlaşdırırıq. Ciddi klublarda çıxış edən futbolçularla danışıqlarımız gedir. Söhbət "böyük beşlik" liqalarında çıxış edən komandalardan gedir. İnanırıq ki, daha güclü heyətə sahib olacağıq. Çox ambisiyalı heyət yığırıq. Sırf Azərbaycan Premyer Liqası üçün yox, Avropada da uğurlu çıxış etmək üçün. Bir az gözləmək lazımdır. 7-8 transfer olacaq. Demək olar ki, hər mövqeyə futbolçu alınacaq". Bu iddialı açıqlamaya baxmayaraq "Neftçi" hələ də yeni transfer etməyib. "Səbail"dən ayrılan qapıçı Emil Balayevin, "Qarabağ"dan ayrılan Filip Ozobiçin flaqmana keçəcəyi barədə xəbərlər yayılsa da, hələlik rəsmi müqavilələr yoxdur.

Komandanın kapitanı və lideri Emin Mahmudovun məsələsi də açıq qalır. Müqaviləsi başa çatan kapitanla yeni müqavilə imzalamaq alınmır.

"QƏBƏLƏ" MÖVCUD HEYƏTİ QORUMAĞA ÇALIŞIR

Ölkə kubokunu qazanaraq bu il ölkəmizi Konfrans Liqasında təmsil etmək hüququ qazanan "Qəbələ" də əsas diqqəti mövcud heyətin qorunmasına yönəldib. Mövsüm başa çatdıqdan sonra baş məşqçi Elmar Baxşıyev, oyunçulardan İlkin Qırtımov, Urfan Abbasov, Murad Musayev, Emil Səfərov, Ülvi İsgəndərov, Kristof Atanqana ilə yeni müqavilələr imzalanıb.

Məqsəd İsayev və braziliyalı Ramon Maçadonu isə saxlamaq mümkün olmayıb. Onlar digər klublara üz tutublar. Klub özü Andrey Strijak və Səlahət Ağayevlə müqavilələri uzatmaq istəməyib.

NAR DƏYƏRLİ HƏDİYYƏLƏRLƏ DOLU YAY MÜSABİQƏLƏRİNƏ BAŞLAYIR

nar

Mobil operator Nar musiqi və dəyərli hədiyyələrlə dolu yay müsabiqələrinə start verir. Məşhur "Darvish Band" ilə birgə ərsəyə gələn müsabiqələr Nar abunəçiləri üçün dinamik yay vəd etməklə yanaşı, texnologiyanın gücünü və musiqiyə olan həvəsi bir araya gətirmək məqsədi daşıyır.

Gənclərin dinamik musiqi zövqünə ortaq olan Nar, abunəçiləri üçün əyləncə dolu müsabiqələrdə iştirak edərək dəyərli hədiyyələr qazanmaq şansı yaradır. Hədiyyəli müsabiqələrdən birincisində gənclər enerji dolu həyat tərzlərinə uyğun olaraq seçilmiş Samsung Galaxy Tab, Apple Watch və JBL qulaqlıqları əldə edəcəklər.

Yay boyunca Nar abunəçiləri növbəti müsabiqələrdə daha da dəyərli hədiyyələr qazanmağa davam edəcəklər. Qarşıdan gələn müsabiqələr haqqında ən tez xəbər tutmaq üçün Narın sosial media səhifələrini (Facebook, Instagram, Twitter) izləməyə davam edin.

Nar hal-hazırda 2,2 milyon abunəçiyə yüksək keyfiyyətli rabitə xidmətləri göstərməkdədir. Nar son 4 ildə Müştəri Loyallığı İndeksinə görə ölkədə lider mobil operatordur. Mobil operator müştəriyönümlülük strategiyasına sadiq qalaraq sərfəli qiymət qarşılığında üstün xidmət təqdim edir.